15 fevral 2023 №12 (1981)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Vacib saydığımız layihələri dost ölkələrə həvalə etmişik

### Azad edilmiş ərazilərdə Qələbə və İşğal muzeyləri İtaliya şirkətləri tərəfindən yaradılır

İtaliya-Azərbaycan əlaqələri o qədər dərin və səmimidir ki, biz özümüz üçün ən vacib saydığımız layihələri məhz İtaliya şirkətlərinə həvalə etmişik. Məsələn, Bakı şəhərində, azad edilmiş bir çox şəhərlərdə Qələbə və İşğal muzeyləri İtaliya şirkətləri tərəfindən yaradılır.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri fevralın 13-də Bakıda İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində işğal zamanı dağıdılmış üç məscid də İtaliya şirkətləri tərəfindən bərpa olunur, həmçinin yeni bir məscid inşa edilir. "Yəni, bütün digər sahələrlə yanaşı, qeyd etdiyim bu layihələr bizim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki bu, bizim həm tarixi keçmişimizdir, eyni zamanda, Qələbəni əks etdirən yeni rəmzlər olacaq", – deyə İlham Əliyev vurğulayıb.

Xatırladaq ki, fevralın 13-də Mingəçevir şəhərində yeni 1280 meqavat gücündə elektrik stansiyasının təməlinin qoyulması münasibətilə Bakıda, "Gülüstan" sarayında layihə üzrə tərəfdaş ölkələrin təmsilçilərinin iştirakı ilə mərasim keçirilib. 2025-ci ildə işə salınması nəzərdə tutulan istilik elektrik stansiyası Azərbaycanda müstəqillik dövründə bu sahədə həyata keçirilən ən böyük layihədir.

Layihənin əsas tərəfdaşı İtaliyanın "Ansaldo Energia" şirkətidir. Eyni zamanda, Çinin bir şirkəti bu stansiyanın tikintisində iştirak edəcək.

Azərbaycan Prezidenti mərasimdə qeyd edib ki, "Azərenerji" ilə "Ansaldo Energia" arasında müqavilələr İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra imzalanıb. Azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda bu gün böyük quruculuq-bərpa işləri getdiyi bir dövrdə, ilk növbədə, o bölgənin enerji potensialı araşdırılır və bu istiqamətdə də İtaliya və Azərbaycanın energetika şirkətləri tərəfdaşlıq çərçivəsində fəaliyyət göstərirlər.

Mərasimdə italiyalı nazir Adolfo Urso öz növbəsində diqqətə çatdırıb ki, iki ölkə arasında dostluq əlaqələri və geniş əməkdaşlıq təhsildən tutmuş mədəniyyətədək müxtəlif sektorlarda əməkdaşlığın genişləndirilməsini təmin edib. "Azərenerji" şirkəti ilə "Ansaldo Energia" arasında qurulan tərəfdaşlıq da tarixi bir hadisədir. Bu, həmçinin dövlətin səlahiyyətində olan əlavə imkanlar hesabına təmin ediləcək. "Ansaldo Energia" şirkəti İtaliya sənayesinin mühüm bir hissəsidir. 170 il əvvəl Genuya şəhərində təsis edilən şirkət bu gün beynəlxalq səviyyədə fəaliyyət həyata keçirir.

Mərasimdə Prezident İlham Əliyev onu da diqqətə çatdırıb ki, son bir ay ərzində İtaliya hökumətinin 3 naziri Azərbaycana səfər edib. Bu, bizim əlaqələrimizin, doğrudan da, nə qədər yüksək səviyyədə olmasından xəbər verir.

*davamı səh. 2-də*

## Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.

Dövlət başçısı, ilk növbədə, Rusiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrə toxunaraq əməkdaşlığımızın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıb.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparılıb.

İqor Xovayev regiona səfəri və Rusiyanın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesinə dəstək vermək üçün atdığı addımlar barədə məlumat verib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Telefon söhbəti zamanı iqtisadi-ticari əməkdaşlığın, o cümlədən energetika və nəqliyyat sahələrində birgə layihələrin həyata keçirilməsi perspektivləri geniş müzakirə olunub.

Cənubi Qafqaz regionunda cari vəziyyət barədə də ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin təmin olunması məqsədilə ardıcıl tədbirlərin görülməsinin əhəmiyyəti qeyd edilib. Bu kontekstdə Rusiya, Azərbaycan və Ermənistan arasında yüksək səviyyədə əldə olunmuş müvafiq razılaşmaların qeyd-şərtsiz yerinə yetirilməsinin vacibliyi vurğulanıb.

## "Türkiyə – tək ürək"

### Türkiyə, Azərbaycan və Şimali Kipr kanallarının ortaq yayımı



Fevralın 15-də Türkiyə, Azərbaycan və Şimali Kiprdə fəaliyyət göstərən televiziya və radio kanalları "Türkiyə – tək ürək" devizi altında qardaş ölkədə zəlzələdən zərərçəkənlərə yardım kampaniyası çərçivəsində ortaq yayım edəcəklər.

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıqlama verib.

Zəlzələ bölgələrində zərərçəkənlər üçün yardım kampaniyası eyni vaxtda üç ölkədə canlı yayımlanacaq.

Yardım kampaniyası yerli vaxtla saat 20:00-da başlayacaq, yığılan vəsait Türkiyənin Təbii Fəlakət və Fövqəladə Halların İdarə Olunması Agentliyi – AFAD-ın və Türkiyə Qızıl Ay Cəmiyyətinin hesabına köçürüləcək.

## Türkiyə yaralarını sarımağa başlayır...

Fevralın 6-da ard-arda zəlzələlərlə sarsılan və tarixinin ən böyük fəlakətini yaşayan Türkiyə qardaş və tərəfdaş ölkələrin də yardımı ilə yaralarını sarımağa başlayır. Ölkədə elan edilən yeddigünlük milli yas fevralın 12-də başa çatdı.



Fevralın 14-də açıqlanan məlumata görə, zəlzələdən ötən doqquz gündə dağıntılar altından 35 mindən çox insanın cansız bədəni çıxarılıb.

Əsrin fəlakəti nəticəsində həlak olanların sayı 35 min 418 nəfərə çatıb. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan məlumat verib. Dövlət başçısı bildirib ki, zəlzələ nəticəsində yaralananların sayı 105 mindən çoxdur.

Təbii fəlakətdən zərər çəkən 200 minədək insan digər vilayətlərə təxliyə olunub.

Fəlakət zonasında 6500-ə yaxın bina dağılıb. Ümumilikdə isə zəlzələnin vurduğu 10 vilayətdə ümumilikdə 40 minə yaxın binanın qəzalı vəziyyətə düşdüyü və söküləcəyi bildirilir.

Qaziantep vilayətinin Nurdağı rayonu (ilçə) zəlzələdə xüsusilə böyük dağıntılara məruz qaldığı üçün tamamilə sökülücək. Bu barədə Nurdağıda axtarış-xilasetmə işlərinə nəzarət edən Şırnak valisi Osman Bilgin məlumat verib.

Axtarış-xilasetmə əməliyyatları isə fəlakətin 9-cu günündə də davam edib. Qaziantepdə binanın dağıntıları altında qalan 40 yaşlı qadın 170 saat sonra xilas edilib. 178 saat sonra Adıyamanda 4 yaşında qız uşağı dağıntılar altından çıxarılıb. Kahramanmaraşda 10 yaşlı qız zəlzələdən 185 saat sonra xilas edilib. 198 saat sonra vilayətin Dulkadiroğlu rayonunda yaşayış binasının dağıntılarından 17 və 21 yaşlı iki qardaş qurtarılıb. Kahramanmaraşda zəlzələdən 205 saat sonra dağıntılar altından 35 yaşlı qadın sağ çıxarılıb.

Amma artıq ümidlər tükənir. Bir sıra ölkələrdən gəlmiş xilasedici komandalar artıq geri dönüblər.

Hazırda zəlzələnin fəsadlarının aradan qaldırılması üçün ümumilikdə ərazidə 233 mindən çox şəxsi heyət çalışır. "Anadolu" agentliyinin məlumatına görə, fəlakət zonasına 12 mindən çox texnika, 70 təyyarə, 24 gəmi cəlb olunub.

## Xalq rəssamı Arif Hüseynovun yubiley sərgisi açılacaq

Fevralın 17-də Azərbaycan Milli Xalça Muzeyində Xalq rəssamı Arif Hüseynovun "Azərbaycan nağılı" adlı sərgisi açılacaq.

"Azərbaycan nağılı" adlı sərgi Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, "Azərxalça" ASC, Rəssamlar İttifaqı və Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə keçiriləcək.

*səh. 5*

## Parisdə məşhur fotoqrafın kitabları təqdim olunub




*səh. 2*

## Azərbaycanın ürəyi Türkiyə ilə döyünür

Azərbaycanın ürəyi Türkiyə ilə döyünür. Kimin gücü nəyə çatırsa, kömək etməyə, dəstək olmağa çalışır.



Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı bu sözləri fevralın 14-də keçirilən brifinqdə deyib.

Hər bir azərbaycanlıya təşəkkürünü bildirən Cahit Bağcı qeyd edib ki, ötən ağır həftə ərzində Azərbaycan Türkiyənin yanında oldu, lazımi dəstəyini göstərdi və göstərməkdə davam edir. Qardaş Azərbaycanın dəstəyi bizim üçün çox dəyərlidir. Bütün vətəndaşlara, Heydər Əliyev Fonduna, aidiyyəti dövlət qurumlarına, sahibkarlara təşəkkür edirik.

Səfir diqqətə çatdırıb ki, fevralın 6-dan 14-dək Azərbaycandan Türkiyəyə 5600-dən çox çadır, 25 min adyal, 1300-ə yaxın generator, 6200-dən çox qızdırıcı göndərilib, 737 ton ərzaq və sair yardım edilib.

*davamı səh. 2-də*

## Malatyadakı tələbələrdən acı xəbər

Türkiyənin Malatya şəhərində zəlzələ nəticəsində dağıntılar altında qalan dörd azərbaycanlı tələbədən birinin meyiti tapılıb.

Bu barədə fevralın 14-də Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Məlumatda bildirilir ki, aparılan axtarış tədbirləri nəticəsində 2001-ci il təvəllüdlü Azərbaycan Respublikasının vətəndaşı Verdiyev Şahin Nail oğlunun vəfat etdiyi məlum olub.

Qeyd edək ki, Türkiyədəki zəlzələdən sonra Malatyadakı İnönü Universitetinin azərbaycanlı tələbələri Samir Quliyev, Şahin Verdiyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadə barədə məlumat almaq mümkün olmamışdı.

Fevralın 14-də axşam saatlarında digər üç tələbənin də meyitinin tapıldığı barədə xəbərlər yayılıb.

Bundan öncə Xarici İşlər Nazirliyi zəlzələ nəticəsində 5 Azərbaycan vətəndaşının öldüyünü bildirmişdi. Onlardan 4-nün nəşi Vətənə gətirilib, biri Türkiyədə dəfn olunub.

XİN-in fevralın 14-də yaydığı məlumatda o da qeyd edilir ki, zəlzələnin baş verdiyi gündən etibarən 513 nəfər Azərbaycan vətəndaşı və onların ailə üzvləri ölkəyə təxliyə olunub.

"Əşyaya toxun, tarixi hiss et"



*səh. 4*

Müasir kinomuzda ədəbi dilin normalarına əməl olunurmu?

*səh. 7*



Kim boynuna alar ki?...

*səh. 5*

# Türkiyə, səninləyik!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Türkiyədəki zəlzələdən zərər çəkənlərə humanitar yardımla bağlı paylaşım edib.



Paylaşımda deyilir:

Əziz həmvətənlər!

Hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına göstərdiyiniz dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin növbəti əyani sübutudur.

Zəlzələ bölgəsində axtarış-xilasetmə işlərinə cəlb olunmuş xilasedicilərimizə, xəsarət alanların sağlamlığına qovuşması üçün əlindən gələni əsirgəməyən tibb işçilərimizə, faciədən zərər çəkmiş Azərbaycan vətəndaşlarının müəyyən edilməsi və təxliyəsi ilə məşğul olan diplomatik xidmət əməkdaşlarına, hadisələri yorulmadan işıqlandıran KİV nümayəndələrinə təşəkkürümü bildirirəm. Ölkəmizdə başlanılmış yardım kampaniyasına qoşulan hər bir soydaşımıza, yerli şirkət və təşkilatlara, xüsusilə yardım toplama məntəqələrində gecə-gündüz var gücü ilə işləyən könüllülərə, polislərə, bir sözlə, qardaş Türkiyə xalqının yanında olmağa çalışan hər kəsə minnətdaram! İnsansevərliyinizə, mərhəmətinizə və şəfqətinizə görə çox sağ olun! Azərbaycanlı olduğuma görə çox qürurluyam!

Zəlzələ nəticəsində həlak olanların sayının artması bizi olduqca kədərləndirir. Həlak olanlara Allahdan rəhmət diləyir, onların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram! Əminəm ki, Türkiyə xalqı öz iradəsi və mətinliyi sayəsində bu ağır sınaqdan sarsılmayacaq! Uca Tanrı dünyamızı qorusun! Türkiyə, səninləyik!

# Fuat Oktaydan ölkəmizə təşəkkür

Fevralın 13-də Azərbaycanın Baş naziri Əli Əsədov və Türkiyənin vitse-prezidenti Fuat Oktay arasında telefon danışığı olub.

Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən xəbərə görə, telefon danışığı əsnasında Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələrinin aradan qaldırılması işlərinin gedişatı müzakirə edilib, Azərbaycan xilasedicilərinin fəlakət bölgələrində axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirdikləri xüsusi vurğulanıb.

F.Oktay zəlzələnin ilk saatlarından Türkiyəyə göstərilən mənəvi və humanitar dəstəyə, bu ağır fəlakətin nəticələrinin aradan qaldırılması və çətinliklərlə üzləşən insanlara yardım göstərilməsi üçün bütün imkanların səfərbər etdiyinə görə Azərbaycan dövlətinə və xalqına bir daha dərin təşəkkürünü bildirib.

# Azərbaycanın ürəyi Türkiyə ilə döyünür

əvvəli səh. 1-də




Xüsusilə Fövqəladə Hallar Nazirliyi və Müdafiə Nazirliyi bütün imkanlarını səfərbər edib. Zəlzələ bölgəsinə ilk çadır və qızdırıcı dəstləri Azərbaycandan göndərilib.

Azərbaycanın öz xəstəxanaları yaralılar üçün təklif etdiyini xatırladan səfir Türkiyənin və Azərbaycanın şad gündə də, ağrılı gündə də bir yerdə olduğunu bildirib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə 11 fevral tarixində yola salınmış Fövqəladə Hallar Nazirliyinin növbəti humanitar yardımını aparan 9 yük avtomobilindən ibarət üçüncü karvan 14 fevralda qardaş ölkəyə çatıb. Kahramanmaraş rayonuna gələn çadır və qızdırıcılardan ibarət humanitar yardım aidiyyəti üzrə təhvil verilib.

Azərbaycan əlindəki bütün yük təyyarələrini Türkiyəyə humanitar yardımların daşınması üçün səfərbər edib.

Bunu isə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu fevralın 14-də Ankarada liviyalı həmkarı ilə birgə mətbuat konfransında deyib.

Nazir bildirib ki, fərqli ölkələrdən karqo təyyarələri ölkəmizə göndərilir. Fevralın 13-dək müxtəlif ölkələrdən 24 minə yaxın çadır ölkəmizə çatıb: "Bu gün içində daha 9000 çadır xaricdən ölkəmizə gətiriləcək...".

# Vacib saydığımız layihələri dost ölkələrə həvalə etmişik

## Azad edilmiş ərazilərdə Qələbə və İşğal muzeyləri İtaliya şirkətləri tərəfindən yaradılır

əvvəli səh. 1-də

Dövlət başçısı bu məqamı İtaliyanın şirkətlər və "Made in Italy" naziri ilə görüşdə də vurğulayıb və yeni layihənin İtaliya-Azərbaycan dostluğunu böyük dərəcədə gücləndirəcəyini deyib: "İtaliya-Azərbaycan əlaqələri strateji məna daşıyır və biz çalışırıq ki, bu strateji tərəfdaşlıq çərçivələrini daha da genişləndirək. İlk növbədə, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Siz də öz çıxışınızda qeyd etdiniz ki, Prezident Mattarellanın Azərbaycana səfəri, mənim İtaliyaya səfərlərim bu əlaqələri daha da gücləndirir. Əlbəttə ki, yanvarın 11-dən bu günə qədər İtaliya hökumətinin üç nazirinin Azərbaycana gəlməsi çox önəmli və deyə bilərəm ki, fövqəladə bir hadisədir. Bu səfərlər zamanı biz həm hərbi, hərbi-texniki, energetika və bütövlükdə investisiya, ticarət sahələrində əməkdaşlığı müzakirə etmişik və edəcəyik".

### Azad olunmuş torpaqlarda ən çox iş görən Türkiyə və İtaliya şirkətləridir

Prezident vurğulayıb ki, iki ölkə arasında güclü siyasi əlaqələr çox böyük təməldir. Neft-qaz və hazırda elektroenergetika layihələri bu təməli böyük dərəcədə gücləndirdi. Eyni zamanda, biz istəyirik ki, ticarət əlaqələri daha da şaxəli olsun: "Bilirsiniz ki, İtaliya-Azərbaycan Universitetinin inşa edilməsi prosesi sürətlə gedir, 5 İtaliya universiteti bizimlə artıq tərəfdaşdır. Eyni zamanda, azad olunmuş torpaqlarda ən çox iş görən şirkətlər Türkiyəni və İtaliyanı təmsil edirlər...".




Dövlət başçısı nəzərə çatdırıb ki, Azərbaycanın işğaldan azad edilmiş torpaqları 10 min kvadratkilometrə bərabərdir. Bu, Livan kimi ölkə boyda bir ərazidir: "Burada hər şey dağıdılıb, ona görə biz hər şeyi yenidən qururuq və istəyirik ki, bu işlərdə daha çox İtaliya şirkəti iştirak etsin – həm inşaat, həm xidmət, həm sərmayə sahələrində, həm də kontraktor kimi. Artıq İtaliyanın "IVECO" şirkəti orada öz müəssisəsini yaratmağa start verib. Orada yük maşınlarının istehsalı nəzərdə tutulur. Ona görə gündəlik çox genişdir və əminəm ki, səfər zamanı bütün bu məsələlər geniş müzakirə ediləcək".

Hələ xarici ticarət naziri olduğu zaman Azərbaycana gəldiyini deyən Adolfo Urso işğal altındakı ərazilərimizi azad etdikdən az müddət sonra İtaliyanın parlament nümayəndə heyətinin tərkibində ölkəmizə səfər etdiyini diqqətə çatdırıb: "O vaxt həmin yerlərə baş çəkdik. Ağdam şəhərinə getdiyimi, məscidin minarəsindən çəkdiklərimi xatırlayıram. İtaliyanın informasiya kanallarında onları nümayiş etdirdim. Bu səfər məndə böyük hisslər doğurdu. Bu dağıntıları heç kəs təsəvvür edə bilməzdi".

Görüşdə hökumətlərarası komissiyanın əhəmiyyətinin vacibliyi qeyd edilib, bu komissiyanın iclasının tezliklə keçirilməsinin qarşıya qoyulmuş vəzifələrin icrası baxımından önəmi vurğulanıb.

Azərbaycanla İtaliya arasında enerji sahəsi ilə yanaşı, bərpaolunan enerji, kənd təsərrüfatı texnikası, əczaçılıq sənayesi, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri barədə fikir mübadiləsi aparılıb.

İtaliyanın enerji təhlükəsizliyinin təmin edilməsində hazırda mühüm rol oynayan TAP layihəsinin əhəmiyyəti və gələcəkdə onun ötürmə qabiliyyətinin artırılması məsələləri müzakirə olunub.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına İtaliyanın həmişə verdiyi dəstək yüksək qiymətləndirilib və Avropa İttifaqı ölkələri arasında İtaliyanın Azərbaycanın mühüm tərəfdaşı olduğu vurğulanıb.

Müzakirə edilən məsələlərin icrası üçün aidiyyəti nazirliklər səviyyəsində qarşılıqlı səfərlərin həyata keçirilməsi üzrə tapşırıqlar verilib.

# Təbii fəlakət türk dövlətlərini daha da həmrəy etdi

Türkiyədə böyük dağıntılara və təlafata səbəb olan 6 fevral zəlzələlərindən sonra ümumilikdə 100-ə yaxın ölkə yardım təklif edib. Bu sırada Azərbaycan öndə olmaqla qardaş türk dövlətləri də xüsusi fəallıq göstərir. Türk dövlətləri humanitar yardım göndərməklə yanaşı, həm də axtarış-xilasetmə qruplarını da qardaş ölkəyə səfərbər etdilər.

Azərbaycan qardaş ölkəyə ən çox axtarış-xilasetmə heyəti göndərən ölkədir. Hazırda zəlzələ bölgəsində 899 nəfərlik heyət çalışır.

Fəlakətdən zərər çəkmiş şəxslər üçün Heydər Əliyev Fondu tərəfindən humanitar yardımın göndərilməsi davam edir. Eyni zamanda Azərbaycanda fəaliyyət göstərən QHT-lər "Qardaş köməyi" adlı platforma yaradıb. Yardım kampaniyasına bir çox bölgələrimiz də qoşulub.

Müxtəlif könüllü təşkilatlarının üzvlərindən ibarət 100 gənc də artıq qardaş ölkədədir. Onlar zəlzələdən zərər çəkmiş vətəndaşlara yardımların paylanılması, əhalinin istiqamətləndirilməsi, qeydiyyat və müxtəlif əlaqələndirmə işlərində iştirak edirlər.

Özbəkistan 100 nəfərdən ibarət axtarış-xilasetmə qrupu, xüsusi maşın və avadanlıqlar, həmçinin humanitar yardım materialları daşıyan 2 təyyarə ilə zəlzələ bölgəsindəki fəsadların aradan qaldırılması işinə dəstəyini verib. Axtarış-xilasetmə heyəti bu günə qədər 16 nəfəri dağıntılar altından xilas edib.

Zəlzələnin ilk günlərindən Qazaxıstan da Türkiyəyə dəstəyini nümayiş etdirib. Prezident Kasım-Jomart Tokayev Türkiyədə zəlzələdən sonra dəyən ziyanın aradan qaldırılması üçün 1 milyon dollar dəyərində təcili yardımın ayrılması barədə göstəriş verib. Qazaxıstan zəlzələ bölgəsinə 41 və 56 nəfərdən ibarət iki göstərişi ilə axtarış-xilasetmə işçiləri, səhiyyə işçiləri və psixoloqlardan ibarət 63 nəfərlik qrup Türkiyəyə yollanıb. Həmçinin ölkə üzrə zəlzələdən zərər çəkənlərə yardım kampaniyası da başlayıb.







axtarış-xilasetmə qrupu göndərib.

Qırğızıstan hökuməti də Türkiyədə baş verən zəlzələlərə görə ilk gündən yardım kampaniyasına başlayıb. Hökumətin Kahramanmaraş şəhərində zəlzələdən zərərçəkənlərin müvəqqəti yerləşdirilməsi üçün Qırğızıstandan gətirilən alaçıqlar qurulub. Çadırların qurulmasında diaspor təmsilçiləri, Qırğızıstandan olan tələbələr, eləcə də Türkiyənin Van əyalətində yaşayan etnik qırğızlar iştirak edirlər. İssık-Kul vilayətinin sakinləri də türk xalqına yardım aksiyasına qoşulublar. Vilayətin bələdiyyə və dövlət müəssisələrinin əməkdaşları birgünlük əməkhaqlarını ianə ediblər.

Türkmənistan 10 nəfərlik həkim və tibbi ləvazimatlardan ibarət axtarış-xilasetmə qrupu və zəlzələlərdən zərər çəkmiş bölgələrə humanitar yardım aparan təyyarəni Türkiyəyə göndərib.

Türk Dövlətləri Təşkilatının müşahidəçi üzvü olan Macarıstan hökuməti və xalqı da zəlzələdən dərhal sonra axtarış-xilasetmə qrupları və humanitar yardımla Türkiyəyə dəstəyini nümayiş etdirib. Bu günə qədər ümumilikdə 156 macar mütəxəssis və 28 axtarış iti zəlzələ bölgəsində axtarış-xilasetmə işlərində iştirak edib.

Şimali Kipr Türk Respublikası zəlzələnin ilk günündən 30 nəfərlik axtarış-xilasetmə qrupunu Türkiyəyə göndərib. Hazırda bölgədə 100 nəfərlik heyət fəaliyyətdədir.

# Rəssamların qrup sərgisi



Fevralın 13-də Bakıda bir qrup rəssamın əsərlərindən ibarət "Serenada" adlı sərgi açılıb.

"Chagh Art Platform"un təşkilatçılığı ilə ərsəyə gələn sərgidə nümayiş olunan əsərlərin aparıcı mövzusu dünya incəsənətinin əsas mövzularından olan insan sevgisi və məhəbbətidir.

Sərgidə nümayiş olunan rəsmlər də bu mürəkkəb insan hisslərini göstərir. "Serenada"da bir araya gətirilən əsərlərin hər biri izləyiciləri rəngkar və heykəltəraşların fərqli hisslərinin, sevgi ilə bağlı düşüncələrinin əks olunduğu sənət incilərini seyrə dəvət edir.

Açılışda çıxış edən sənətşünas Qalib Qasımov "Chagh Art Platform"un fəaliyyətindən, sərginin əhəmiyyətindən danışıb, rəssamların romantik və lirik üslubda yaratdıqları əsərlərin bədii estetikasından bəhs edib. O, həmçinin sərginin kuratorları – gənc sənətşünaslar Nigar Hətəmova, Şəbnəm Əzizova və Dürdanə Qurbanovanın fəaliyyətlərinə toxunaraq, ölkəmizdə kuratorluq işinin inkişafında gənclərin rolunu xüsusi qeyd edib.

Sərgi fevral ayının 16-dək davam edəcək.

# Reza Deqati: "Azərbaycanın parçalanması İranda qalan soydaşlara daim ayrılıq hissi yaşadıb"

## Parisdə məşhur fotoqrafın kitabları təqdim olunub

XIX əsrdə iki dövlət arasında gedən müharibənin nəticəsində vahid Azərbaycan iki hissəyə parçalanıb. O gündən bir hissəsi Qafqazda yerləşən Şimali Azərbaycan və İranın tərkibində qalan Cənubi Azərbaycan məfhumları yaranmağa başlayıb. Beləliklə, azərbaycanlılar ikiyə parçalanıb və soydaşlarımız bir-birlərindən ayrı salınıblar. İranda olan etnik azərbaycanlılar həmişə həsrətlə Arazın bu tayında olan Azərbaycan Respublikasına baxıblar, doğmalarını görmək həsrəti ilə yaşayıblar. Bir xalqın ikiyə bölünməsi və doğmalar arasındakı ayrılıq... Bu gün burada səsləndirdiyimiz "Ayrılıq" mahnısının mənşəyi həmin tarixdən başlayır.

Məşhur fotoqraf Reza Deqati bu fikirləri Parisdə "Zulma" nəşriyyat evi tərəfindən təşkil edilmiş və görkəmli Azərbaycan müğənnisi Rəşid Behbudovun ifasında "Ayrılıq" mahnısı ilə başlayan ədəbi gecədə deyib.

Fotoqraf bildirib ki, vaxtilə həmin mahnını ailələrində hər kəs oxuyurmuş. Bu mahnı Azərbaycan ərazisinin iki yerə bölünməsi ilə İran ərazisində qalmış azərbaycanlılara həmişə ayrılıq hissini yaşadıb. Təəssüflər olsun ki, bu gün 30 milyondan çox azərbaycanlı İranda hələ də ayrılıq nisgili ilə yaşayır.

Ədəbi gecədə Reza Deqatinin Azərbaycanın təbiətini, tarixi məkanlarını, abidələrini, tolerantlıq mühitini, Qarabağ müharibəsini əks etdirən fotolarından ibarət "Günahsızların kütləvi qırğını" (Le massacre des innocents) və "Alovun zərifliyi" (L'Elégance du feu) kitabları təqdim olunub.



Reza Deqati "fotoqrafiya insanlığın xidmətində" devizi ilə dünyanın ən qaynar nöqtələrinə səyahət edib. Gördüyü hər anı çəkdiyi fotolarda əbədiləşdirib. Onun fotoları beynəlxalq jurnallarda ("National Geographic", "Time Magazine", "Stern", "Newsweek", "El País", "Paris Match", "Geo"…) nəşr edilib.

# Məsələnin həlli üçtərəfli Bəyanatın müddəalarına əsaslanmalıdır

## "Biz bunu rəhbər tutacağıq və razılaşmaların həyata keçirilməsi üçün hər şeyi edəcəyik"

**Ölkələrimiz arasında münasibətlər mehriban qonşuluq və qarşılıqlı hörmət əsasında inkişaf edir. Bu xüsusda parlamentlərarası münasibətlərin daha da genişləndirilməsi əhəmiyyət kəsb edir. O cümlədən müxtəlif sahələr üzrə komitələrin imkanlarından istifadə edilməlidir.**



Rusiya Federasiyası Dövlət Dumasının sədri Vyaçeslav Volodin bu sözləri fevralın 13-də Moskvada Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova ilə görüşü zamanı deyib.

Ötən il Rusiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladan Vyaçeslav Volodin münasibətlərin inkişafında dövlət başçılarının rolunu xüsusi vurğulayıb. Diqqətə çatdırılıb ki, parlamentlərimiz də prezidentlər səviyyəsində qəbul olunmuş qərarların qanunvericilik bazasının təmin edilməsinə öz töhfəsini verə bilər. Bu baxımdan iki ölkənin parlamentləri arasında əməkdaşlıq haqqında memorandum münasibətlərin yeni mərhələyə qədəm qoymasına şərait yaradacaq.

Söhbət zamanı Dövlət Dumasının sədri Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən qəbul edilmiş qərarların həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Dövlət Dumasının sədri Avropa strukturlarını, xüsusən də Avropa Parlamenti və AŞPA-nı regiondakı vəziyyətin həllinə cəlb etmək cəhdlərinə qarşı olduğunu vurğulayaraq əlavə edib ki, məsələnin həlli Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli Bəyanata əsaslanmalıdır. "Gəlin ondan çıxış edək ki, Azərbaycan, Ermənistan və Rusiya Federasiyasının liderləri səviyyəsində qəbul olunmuş qərarlar var. Biz bunu rəhbər tutacağıq və öz tərəfimizdən bu razılaşmaların həyata keçirilməsi üçün hər şeyi edəcəyik", – deyə V.Volodin bildirib.

Milli Məclisin sədri Sahibə Qafarova bu səfərin parlamentlərimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu deyib. O, Prezident İlham Əliyevin ötən ilin fevralında Rusiyaya rəsmi səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin imzalandığını qeyd edərək bildirib ki, ölkələrimiz arasında münasibətlər dövlət başçıları tərəfindən yaradılmış möhkəm bazaya əsaslanır.

Parlamentin spikeri vurğulayıb ki, humanitar sahədə əlaqələr ölkələrimiz arasında əməkdaşlıqda mühüm istiqaməti təşkil edir. Bu mənada Birinci vitse-prezident Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolunu xüsusi qeyd edən Sahibə Qafarova Fondun dəstəyi ilə keçirilən tədbirlər barədə məlumat verib. Xatırladıb ki, 2019-cu ilin noyabrında Moskvada Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan-Rusiya regionlararası forumunun 10 illiyinə həsr olunmuş tədbir keçirilib. Fondun dəstəyi və Azərbaycan ilə Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə ötən il fevralın 21-dən martın 1-dək Moskvada Azərbaycan mədəniyyəti günləri keçirilib. O, belə tədbirlərin münasibətlərimizin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb.

2020-ci ildə Azərbaycanın öz torpaqlarının 30 ilə yaxın Ermənistan tərəfindən işğalına son qoyduğunu xatırladan Milli Məclisin sədri deyib ki, ərazilərimiz azad edildikdən dərhal sonra Azərbaycan öz hesabına genişmiqyaslı bərpa və quruculuq işlərinə başlayıb. Hazırda işğal zamanı dağıdılmış bütün infrastruktur bərpa olunur. "Yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni qəsəbə və kəndlər salınır. Artıq keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtması prosesi başlayıb. Bununla belə, Milli Məclisin sədri mina probleminin hələ də qaldığını bildirib. O qeyd edib ki, Ermənistan işğal dövründə ərazilərimizə bir milyondan çox mina basdırıb. Müharibə başa çatandan sonra da Ermənistan tərəfi Laçın yolundan mina, hərbi sursat və təbii sərvətlərin qeyri-qanuni daşınması üçün istifadə edib. Müharibədən sonra mina partlaması nəticəsində 280-dən çox Azərbaycan vətəndaşı həlak olub və ya ağır yaralanıb.

Azərbaycanın regionda sülhün və təhlükəsizliyin tərəfdarı olduğunu diqqətə çatdıran Sahibə Qafarova qeyd edib ki, ölkəmiz Ermənistana beynəlxalq hüququn beş prinsipi əsasında sülh müqaviləsinin imzalanmasını təklif edib. Lakin Ermənistanın təxribatları sülh prosesinə mane olur.

Xüsusi olaraq vurğulanıb ki, Ermənistan Laçın yolunun guya Azərbaycan tərəfindən bağlanması, torpaqlarımızda yaşayan erməni sakinlərinin blokadaya məruz qalmaları, humanitar böhran vəziyyətinin yaranması ilə bağlı uydurma iddialarla beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Laçın yolu boyunca hər gün çoxlu nəqliyyat vasitələrinin – sülhməramlı kontingentin avtomobillərinin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, erməni təcili yardım avtomobillərinin hərəkəti erməni tərəfinin iddialarının yalan olduğunu göstərir. Ermənistan beynəlxalq ictimaiyyəti yanıltmaq məqsədilə manipulyasiya ilə məşğuldur.

Milli Məclisin sədri həmçinin İranda Azərbaycan səfirliyinə qarşı törədilən terror aktı, diplomatik korpusun bir əməkdaşının həlak olması və iki əməkdaşının yaralanması haqqında da məlumat verib. Deyib ki, Azərbaycan bu terror hücumunun ədalətli araşdırılmasını və günahkarlarının layiqli şəkildə cəzalandırılmasını tələb edir.

Görüşün sonunda Azərbaycan Milli Məclisi ilə Rusiya Dövlət Duması arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

# Bir sıra qanunlara dəyişikliklər nəzərdə tutulur

**Milli Məclisin fevralın 17-də keçiriləcək iclasında bir sıra qanunlara, o cümlədən mədəniyyət sahəsi ilə bağlı bəzi qanunvericilik aktlarına dəyişikliklər ediləcək. Bununla bağlı məsələlər parlamentin plenar iclasının gündəliyinə salınıb.**

Gündəlikdə ümumilikdə 31 məsələ var.

Onların arasında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Nəşriyyat işi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Telekommunikasiya haqqında", "İnformasiya əldə etmək haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi də var.

Daha bir qanun layihəsi "Dini ekstremizmə qarşı mübarizə haqqında", "Lisenziyalar və icazələr haqqında", "Hərbi vəziyyət haqqında", "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Məşğulluq haqqında", "Hesablama Palatası haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında", "Psixoloji yardım haqqında", "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" və "Turizm haqqında" qanunlarda dəyişiklik edilməsi barədədir.

Bundan əlavə, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşlıların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunun layihəsi də gündəlikdə yer alıb.

"Yerli rəy sorğusu haqqında", "Avtomobil yolları haqqında", "Diplomatik xidmət haqqında", "Dövlət satınalmaları haqqında", "Gənclər siyasəti haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Tənzimlənən qiymətlər haqqında" və "Banklar haqqında" qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə də baxılacaq.

Qeyd edək ki, ediləcək dəyişikliklərin çoxu qanunların daha öncə qəbul olunmuş ayrı-ayrı qanunvericilik aktlarının müvafiq müddəaları ilə uzlaşdırılması məqsədi daşıyır.

# Memarlıq və dizayndan idarəetməyədək

## Bakıda İtaliya-Azərbaycan Universiteti yaradılır

Xəbər verildiyi kimi, İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso ölkəmizə səfər edib. Səfər çərçivəsində o, fevralın 13-də ADA Universitetində olub.

ADA Universitetindən bildirilib ki, qonaqla görüşdə rektor Hafiz Paşayev İtaliya-Azərbaycan Universiteti ilə bağlı görülmüş işlər və gələcək planlar barədə məlumat verib, ölkəmizin müxtəlif sektorları, o cümlədən memarlıq və dizayn, kənd təsərrüfatı və idarəetmə üzrə yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsində tərəfdaş İtaliya universitetləri ilə birgə fəaliyyətindən söhbət açıb.



ADA Universitetinin akademik işlər üzrə prorektoru Vəfa Kazdal bu təşəbbüs çərçivəsində İtaliyanın Luiss Universiteti, Alma Mater Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti və Roma Sapienza Universiteti ilə əməkdaşlıq barədə məlumat verib.

İtaliyalı nazir bu layihənin iki ölkə arasındakı strateji münasibətlər üçün əhəmiyyət kəsb etdiyini vurğulayıb və ADA Universitetinin bilik və təcrübə mübadiləsindəki rolunu təqdir edib. O, həmçinin "Made in Azerbaijan" keyfiyyət nişanının idarə edilməsi və təbliğinə yönəlik akademik proqramların hazırlanması üçün əsas rol oynayacaq "Made in Italy" təcrübəsinin ("nou-hau") qeyri-maddi dəyərini vurğulayıb.

Görüşdən sonra rektor Hafiz Paşayevlə birlikdə İtaliya-Azərbaycan Universitetinin ADA kampusundakı tikinti sahəsi ilə tanışlıq olub, xatirə şəkli çəkilib.

Qeyd edək ki, İtaliya-Azərbaycan Universiteti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsüdür. Bu universitet barədə razılıq Prezident İlham Əliyevin 2020-ci ildə İtaliyaya dövlət səfəri zamanı əldə olunub. ADA Universiteti və İtaliya universitetləri ilə akademik əməkdaşlığa dair sazişlər 2022-ci il sentyabrın 1-də Romada ölkəmizin səfirliyinin yeni binası və Azərbaycan Mədəniyyət Mərkəzinin açılış mərasimində imzalanıb. Bu təşəbbüs çərçivəsində təklif olunan ilk iki magistr proqramı 2023-cü ilin sentyabrından etibarən fəaliyyətə başlayacaq.

# Böyük İslam Ensiklopediyası Mərkəzinin əməkdaşı Milli Kitabxanada olub

## Dahi Azərbaycan şairi Nizaminin irsinin tədqiq və təbliği barədə söhbət aparılıb

Böyük İslam Ensiklopediyası Mərkəzinin əməkdaşı, Tehran Dövlət Universitetinin professoru Ali Mir-Ansari fevralın 14-də Azərbaycan Milli Kitabxanasında olub.



Qonağın Milli Kitabxananın direktoru Kərim Tahirovla görüşü zamanı Nizami Gəncəvi ilə bağlı aparılan tədqiqatlardan, akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Oksford Universitetinin (Böyük Britaniya) nəzdində yaradılmış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi ilə birgə şairin bütün əsərlərinin Azərbaycan, fars, ingilis və rus dillərində kataloqunun hazırlanması və Nizami ilə bağlı tədqiqatlar haqqında biblioqrafiya yaratmaq ideyasından bəhs edilib.

Milli Kitabxananın 2019-cu ildən Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirdiyi "Milli mədəniyyət sərvətlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində böyük Azərbaycan şairinin irsinə dair dünya kitabxanalarında mühafizə olunan 157 əlyazmasının elektron nüsxəsini əldə etdiyi və bu işin hələ də davam etdiyi vurğulanıb.

Görüş zamanı Milli Kitabxananın filialı kimi Gəncə şəhərində Nizaminin əsərləri, onun haqqında tədqiqatları və şairin əlyazmalarının çap və elektron nüsxələrinin toplandığı "Nizami Gəncəvi Kitabxanası"nın yaradılması ideyası da irəli sürülüb.

Qonaq Milli Kitabxananın Nadir kitablar və kitabxana muzeyi şöbəsində olan əlyazmalarla tanış olub.

Görüşün sonunda qonağa Nizami Gəncəvinin Milli Kitabxana tərəfindən çap olunmuş fundamental biblioqrafiyası və digər kitablar hədiyyə edilib.

# Türkiyəyə qardaş yardımı davam edir

**Türkiyədəki dəhşətli zəlzələdən zərərçəkmiş insanlar üçün fevralın 7-dən Bakıda, eləcə də digər şəhər və rayonlarda başlanan yardım toplama kampaniyası davam edir. Kampaniyaya yerli şirkət və təşkilatlar, minlərlə soydaşımız qoşulub.**



Yardım kampaniyası Türkiyənin Azərbaycandakı Səfirliyi və Heydər Əliyev Fondu tərəfindən təşkil olunub.

Bakıda yardımların qəbul edildiyi Heydər Əliyev adına İdman Kompleksinə əsasən qış paltarları, yorğan-döşək, ərzaq məhsulları, qızdırıcı cihazlar, digər məişət əşyaları və ləvazimatlar gətirilir. Əşya və ləvazimatlar könüllülər tərəfindən çeşidlənərək qablaşdırılır, avtomobillərə yüklənir, sonra qardaş ölkəyə yola salınır. Kampaniyada yüzlərlə gənc, həmçinin sıravi vətəndaşlar könüllü kimi fəaliyyət göstərir.

Gəncədən Türkiyədə dağıdıcı zəlzələdən zərərçəkmiş insanlar üçün növbəti yardım karvanı yola salınıb. Yardım kampaniyası çərçivəsində 11 yük maşını yola düşüb. Yola salınan yardımlar Gəncə, Ağdam, Balakən, Oğuz, Şəki, Beyləqan, Zərdab, Ucar, Masallı, Lənkəran, Göygöl, Füzuli, Tərtər, Yevlax, Şəmkir, Göyçay, Daşkəsən, Samux və Gədəbəydən toplanıb.

Türkiyənin Gəncədəki baş konsulu Rəcəb Öztopun verdiyi məlumata görə, fevralın 11-də qardaş ölkəyə 125 ton yardım yola salınıb.

Sumqayıt sakinləri ilk günlərdən kampaniyada fəal iştirak edirlər. Şəhərin müxtəlif yerlərində yardımların toplanması üçün xüsusi məntəqələr yaradılıb. Hadisə baş verən ilk gündən sumqayıtlıların yardım toplama məntəqələrinə axını müşahidə olunur. Vətəndaşlar tərəfindən gətirilən yataq dəstləri, isti geyimlər, təmizlik ləvazimatları, konservləşdirilmiş qidalar, zəruri quru ərzaqlar, tibbi ləvazimat, eləcə də digər zəruri yardımlar məntəqələrdə çeşidlənib və qablaşdırılır.

Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən insanların müvəqqəti yaşaması üçün 22 ədəd konteyner evin zəlzələdən zərər çəkmiş bölgələrə göndərilməsi nəzərdə tutulur. Bildirilib ki, fevralın 13-də həmin konteyner evlərdən ilkin olaraq 4 ədədi, həmçinin 230 min manat dəyərində təqribən 16 ton humanitar yardım Sumqayıtdan birbaşa Türkiyəyə yola salınıb.





Şamaxı sakinləri Türkiyədə zəlzələdən zərərçəkmişlərə yardım kampaniyası çərçivəsində Şamaxı Olimpiya Mərkəzində təşkil edilən yardım toplama məntəqəsinə imkanları çatan əşya və avadanlıqlar, ərzaq məhsulları və s. gətirirlər.

Zəlzələdən zərərçəkən şəxslərə kömək məqsədilə toplanan yardımları aparan növbəti avtomobil karvanı Qubadan yola salınıb. Yardımlar rayonun Qaraçay kəndindəki məntəqədə toplanaraq çeşidlənib.

Fevralın 13-də Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən 4 TIR humanitar yardım Türkiyəyə yola salınıb. Qardaş yardımına zəlzələ bölgəsində daha çox ehtiyac duyulan elektrik generatorları və içməli su daxildir.

Qardaş ölkəyə göndərilməsi üçün Naftalan Şəhər İcra Hakimiyyətinin xətti ilə humanitar yardım fevralın 10-da Gəncəyə gətirilib. Şəhər İcra Hakimiyyətindən bildirilib ki, yardım kampaniyası çərçivəsində zəruri geyim, yorğan-döşək dəstləri və tibbi ləvazimatlar göndərilib.

Ağdam sakinləri Quzanlı qəsəbəsindəki Olimpiya İdman Kompleksində təşkil edilən yardım toplama məntəqəsinə gəlir, türk qardaşlarımıza dəstəklərini nümayiş etdirirlər. İki gün ərzində humanitar yardımlar yüklənmiş 2 TIR Türkiyəyə yola salınıb.

Qusardan olan ayrı-ayrı iş adamları, şəhid anaları, qazilər və digər vətəndaşlar Türkiyədə dağıdıcı zəlzələdən zərərçəkmiş insanlar üçün tibbi ləvazimatlar, qış paltarları, yorğan-döşək, məişət avadanlıqları, zəruri gigiyenik vasitələr və ərzaq malları, ümumilikdə 104 min manatlıq yardım yığılaraq qardaş ölkəyə göndərilib.

Lənkəranda ümumi dəyəri 50 min manat olan 15 ton Lənkəran düyüsü və 1 ton Lənkəran çayı zəlzələdən zərər çəkmiş insanlara yardım məqsədilə Kahramanmaraş şəhərinə yola salınıb.

Masallı şəhərində 187 min manat dəyərində olan müxtəlif ərzaq məhsulları, yataq dəstləri və digər zəruri ləvazimatlar toplanaraq qardaş ölkəyə göndərilib.

Eyni zamanda Astara, Lerik, Yardımlı, Qax, Bərdə, Hacıqabul, Neftçala, Saatlı, Salyan, Tovuz, Gədəbəy, Qazax və digər rayonlarda da sakinlər yardım kampaniyasına qoşulublar. Müvafiq məntəqələrə gətirilən yardımlar könüllülər tərəfindən çeşidlənir, qablaşdırılır, avtomobillərə yüklənir və qardaş ölkəyə göndərilir.

**Hazırladı: N.Məmmədli**

№12 (1981)
15 fevral 2023
www.medeniyyet.az

# Torpağı Vətən edənlərin xatirəsi əziz tutulur

Goranboy rayon Mədəniyyət Mərkəzinin Qaraçinar kənd Mədəniyyət evində Vətən müharibəsi şəhidi Tacir Cəfərovun doğum günü ilə əlaqədar anım tədbiri keçirilib.

***



Kürdəmir RMİ-də Aprel döyüşlərinin şəhid hərbi pilotu, baş leytenant Əbu Bəkr İsmayılovun (1990-2016) doğum günü ilə əlaqədar anım tədbiri keçirilib. İdarə rəisi Faiq Xudanlı və tədbir iştirakçıları Aprel döyüşlərinin tarixi əhəmiyyətindən danışıb, şəhidin qəhrəmanlıq yolu haqqında ətraflı söz açıblar.

***

Ağstafa rayon Hüseyn Arifin Ev-Muzeyi və Ağstafa Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Vətən müharibəsi şəhidi Elnur Həsənovun ailəsini ziyarət ediblər. Görüşdə şəhidin döyüş yolu xatırlanıb, Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz tərəfindən yazılmış şanlı Zəfər tarixinə nəzər salınıb.

***



Masallı Tarix-Diyarşünaslıq Muzeyinin dəstəyi ilə Bədələn kənd tam orta məktəbində "Qəhrəmanları tanıyaq" başlığı altında qazilərlə şagirdlərin görüşü keçirilib.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində Xocalı soyqırımının 31-ci ildönümü ilə bağlı "Qisası alınan torpaq" adlı sərgi təşkil edilib. Fevralın 27-dək davam edəcək sərgidə Xocalı soyqırımını özündə əks etdirən fotolar, o cümlədən faciədən bəhs edən kitablar nümayiş olunur.

***

Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Ağdam Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Ağdam Muğam Mərkəzində Milli Qəhrəman, I Qarabağ müharibəsi şəhidi Canpolad Rzayevin (1968-1992) xatirəsinə həsr edilmiş sənədli filmin təqdimatı olub. Çıxış edənlər Canpolad Rzayevin döyüş yolundan, şəhid və Milli Qəhrəman ailələrinə, qazilərə göstərilən dövlət qayğısından bəhs edib, gənclərdə vətənpərvərlik duyğularının inkişaf etdirilməsində bu kimi filmlərin əhəmiyyətindən danışıblar. "Salnaməfilm" studiyası tərəfindən hazırlanmış "Canpolad" filminin rejissoru Elşən Zeynallıdır.

# Xalqın iftixar mənbəyi





"Heydər Əliyev İli" ilə bağlı regional mədəniyyət idarələrinin (RMİ) tabeliyində fəaliyyət göstərən müəssisələrdə tədbirlər davam edir.

**Ağcabədi RMİ.** Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev İli" ilə əlaqədar film nümayişlərinə başlanılıb. Nümayişdən əvvəl məktəblilərə Ümummilli liderin ömür yolu, xalqımız və dövlətimiz qarşısında əvəzsiz xidmətləri haqqında ətraflı məlumat verilib. Sonra tədbir iştirakçıları "Xalqa bağışlanan ömür" filmini izləyiblər.

***

**Sabirabad RMİ.** Sabirabad rayon Mədəniyyət Mərkəzində Milli Məclisin deputatı Kamal Cəfərov gənc mədəniyyət işçiləri ilə görüş keçirib. "Heydər Əliyev siyasi məktəbi" layihəsi çərçivəsində keçirilən görüşdə Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə, gənc mədəniyyət işçiləri və digər qonaqlar iştirak ediblər. Dövlət tərəfindən mədəniyyət sahəsinin inkişafı istiqamətində həyata keçirilən layihələrdən danışılıb.





***

**Gəncə RMİ.** Gəncə şəhər MKS-nin 9 saylı kitabxana filialı "Vətənini, millətini sevən iftixar mənbəyi" adlı tədbir təşkil edib. Çıxışlarda Ulu öndərin təhsilə olan diqqət və qayğısı, ölkənin tərəqqisi naminə gördüyü işlər barədə söz açılıb.

***

**Şəki RMİ.** Şəki şəhər Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Şəki nümayəndəliyinin təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş intellektual yarış keçirilib. Qalib Fidan Əzimovaya fəxri fərman və hədiyyələr təqdim edilib.

Qax rayon Qum kənd Sənətkarlıq evi və kitabxanasının birgə təşkilatçılığı ilə "Heydər Əliyev və dil siyasəti" adlı tədbir keçirilib. Çıxış edənlər bütün həyatını xalqının, Vətəninin inkişafına həsr edən dahi siyasətçinin Azərbaycan dilinə həmişə tükənməz məhəbbətlə yanaşdığını bildirib, diqqət və qayğı göstərdiyini bildiriblər.

***

**Biləsuvar RMİ.** Salyan rayon Heydər Əliyev Mərkəzində "Məni salyanlılarla çox səmimi və duyğulu tellər birləşdirir" layihəsi əsasında "Heydər Əliyev müasir dövlətdə qadın siyasətinin banisidir" adlı elmi konfrans keçirilib. Konfransda Salyan rayonunda mədəniyyət, təhsil, səhiyyə və digər sahələrində fəaliyyət göstərən xanımlar iştirak ediblər.

***

**Masallı RMİ.** Cəlilabad rayon Heydər Əliyev Mərkəzində məktəblilər arasında "Heydər Əliyev irsi və azərbaycançılıq məfkurəsi" mövzusunda inşa yazı müsabiqəsi keçirilib. M Müsabiqə Lənkəran-Astara Regional Təhsil İdarəsinin Cəlilabad rayonu üzrə sektoru və rayon Mədəniyyət Mərkəzi ilə birgə təşkil olunub.

**Hazırladı: N.Məmmədli**

## "Əşyaya toxun, tarixi hiss et"

Ağdaş RMİ Ucar Tarix-Diyarşünaslıq Muzeyində "Əşyaya toxun, tarixi hiss et" adlı layihəyə başlanılıb. Muzeydə ziyarətçilərin istəyi və maraq dairəsi nəzərə alınaraq onların bu və digər eksponatla təmasına imkan yaradılır. Bununla onlar tarixi bir növ hiss edirlər.

Layihənin məqsədi əhali arasında muzeylərə olan marağın artırılması, bu yolla tariximizin, irsimizin, milli mədəni dəyərlərimizin təbliğinə və təşviqinə nail olmaqdır.

Layihə üzrə ilk sərgi qədim dulusçuluq sənətinə həsr edilib. Bu kolleksiyadan müxtəlif təyinatlı dulusçuluq əşyaları nümayiş olunub. Nümayiş etdirilən eramızdan əvvəl IV-II minilliyə aid gil əşyalar, arxeoloji artefaktlar tamaşaçıların böyük marağına səbəb olub.

# Bir şənbə günü Sumqayıt teatrında...

## Teatrsız yaşaya bilməyənlərlə məşq sonrası və tamaşa öncəsi darmacalda açıq söhbət

*Lap əvvəldən başlayım. Məkana budəfəki gəlişimdə azdım. Daha doğrusu, mindiyim yeni marşruta görə istiqaməti çaşdırdım. Yanımdan tələsik ötən yaşlı bir nəfəri saxlayıb Sumqayıt Dövlət Dram Teatrına necə gedə biləcəyimi soruşuram. "Kimyaçılar Mədəniyyət sarayını deyirsən?" – suala sualla cavab verən və bu məkanı keçmiş adı ilə də yaxşı tanıyan sakin "Siz cavanlar hər yeri tanıyırsız, bircə teatra getmirsiz" kimi ərkyana danlağıyla məni düz binanın önünə qədər gətirdi.*

Daha ona nə bu şəhərdə qərib olduğumu, nə də az qala teatrlarda gecələdiyimi dedim. Sağollaşıb Sumqayıt Dövlət Dram Teatrının yerləşdiyi əzəmətli binanın önündə nəfəsimi dərdim. Buludları qovub gülümsəyən günəşə göz vurub pillələnləri qalxmışdım ki, teatrın inzibati işçisi "Xanım, bir dəqiqə, hara gedirsiz, kim lazımdı", – deyib önümü kəsdi. Özümü könülsüz təqdim elədim. Bakı teatrlarında üz-gözümə öyrəşiblər deyə belə təqdimata ehtiyacım olmur. Əməkdaş "Burada gözləyin", – deyib gedir.

Aradan keçən 3-5 dəqiqədə təkərli afişaları içəri-çölə daşıyan texniki işçi, kassanın kiçik pəncərəsindən məni süzən kassir və "teatr asılqandan başlayır" deyiminin tələblərini rəhbər tutan bəzək-düzəkli qarderobçu gənc qadın gözümdən yayınmır.

Budur, Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmovun doğma səsi gəlir. Yaşına inad cəldliklə foyeyə gəlişini görüb sevinirəm. Zala keçirik.

Pandemiyadan da qabaq oynanılmış "Ocaq" tamaşasının (türk yazıçısı Turqut Özakmanın əsəri əsasında) yeni məşqləridir. Əməkdar artistlər Rauf Ağakişiyev, Xatirə Süleymanova, Cəlal Məmmədov, aktyorlar Növrəstə Həşimova, Oqtay Mehdiyev, Habil Xanlarov və başqaları son səhnənin üzərindən bir də keçirlər. Quruluş müəllifi səhnə əsəri barədə ətraflı məlumat verir.

Rejissor əsər barəsində danışdıqca mən artıq boşalan səhnədə qurulan dekorasiyaya – kasıb, ehtiyac içində çırpınan ailənin yaşadığını göstərən səhnə tərtibatına baxıram. İki gözü işləməyən qaz sobası və onun üzərinə qoyulan elektrikli soba, sınıq-salxaq dolablar, səhnənin ortasındakı kiçik masanın üzərindəki nimdaş örtük... və miskinliyin, çarəsizliyin təsviri olan rekvizitlər məkanı işğal edib.

Uğursuz atanı oynayan Rauf müəllim gur səsi ilə səhnə maşinistlərinə ciddi təlimat verir: "Burda nəyi hara qoymuşam, əl vurmayın ha". Sonra qəhrəmanının corablarını stulun ayaqlığından asır. Arabir səhnə arxasından "biz də varıq" tap-tupu gəlir. Maşinistlər bədii quruluş hissə müdirinin təlimatı ilə nə isə icra edirlər.

Bu arada Firudin müəllimdən ilin tamaşa plan-proqramını da xəbər alıram. Təbii ki, bir gözüm də səhnədədir. Sağ küncdəki kresloda əyləşən Növrəstə xanım obrazı üzərində astadan təkrarlama-məşqlər edir. Arabir "Təzyiqim də



qalxıb, bir dərman içdim, amma deyəsən təsir eləmədi. Başım çatlayır", – deyib gileylənir. Bu arada sobanın üzərindəki kartof püresinin də qoxusu ac adamlar üzərində qələbəsini elan "edir". Hələ zümzümə edən çaydanı demirəm.

Fürsət tapıb real məişət təsvirinə hesablanmış səhnə tərtibatçısını xəbər alıram. Öyrənirəm ki, tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayevdir. Bədii quruluş hissə müdiri gözə dəyməsə də, onun tapşırıqlarını icra edənlər səhnənin sol və sağ künclərindən oğrun-oğrun zalı da süzürlər.

Hər vəchlə müsahibədən qaçan səhnə arxasında çalışanları da dinləmək istəyirəm. Baş rejissor bir-bir maşinistləri səsləyib, müsahibəyə cəsarətləndirsə də, aldığımız cavab bu olur: "Ə yox e, danışmaq bizlik döyül. Müəllim danışır da, bir-iki ağız da bizim əvəzimizdən danışar...".

Firudin müəllim davam edir: "Bildiyiniz kimi, bu il "Heydər Əliyev İli"dir. Aqşin Babayevin "Xilaskar" əsərini hazırlayırıq. Əsər bu teatrda 2004-cü ildə bir neçə dəfə oynanılıb. Yenidən ona müraciət etdik. Sənədli teatr üslubunda olan tamaşa mayadək təqdim olunacaq. Tüncer Cücenoğlunun "Uçqun" əsərini də rejissorlara təklif etdim və tamaşaya qoyulacaq. Vətənpərvərlik mövzusunda isə "Kəşfiyyatçı" əsərini götürmüşük və ilin sonunadək bu nümunələri plan üzrə hazırlayacağıq. Bizim tamaşaçı kontingentin mühüm hissəsi də məktəblilərdir. Bilirsiniz ki, şəhərimizdə uşaq teatrı yoxdur. Onların da tamaşa tələbini biz ödəyirik. İl ərzində uşaq və yeniyetmələr üçün Yusif Əzimzadənin "Nəsrəddin" əsərini də hazırlayacağıq. Şübhəsiz ki, planlar çoxdur. Hətta beş ildir ki, Albet Kamyunun "Kaliqula" əsərini səhnəyə qoymaq istəyirəm...".

Bu məqamda repertuar qurarkən teatrın potensialını nəzərə almayan bəzi rejissorlara da xitab olan sualımı verirəm: "Bu və sadaladığınız digər tamaşalar üçün truppanız var və ümumən əsər seçimində aktyor kontingentini nə dərəcədə nəzərə alırsınız?".

"Təbii ki, ilk növbədə, truppanı və imkanları nəzərə alırıq. Ona qalsa o qədər səhnəyə gətirmək istədiyim əsər var ki", – deyə söz davam edən baş rejissor əlavə edir ki, burada təkcə aktyorun zahiri görünüşü şərt deyil. O, beyin və intellekt, hiss və istedad baxımından da obrazını tamamlamalıdır. Sözsüz ki, bir də maliyyə vacib şərtdir. Çatmayanda başlayırsan rəssamla hər hansı daha əlverişli və maliyyəsiz vasitələrə əl atmağa. Çünki elə əsərlər var ki, onların səhnə tərtibatı baha başa gəlir. Belə olduqda da istəklərini ildən-ilə ötürüb, ürəkdə saxlamalı olursan.

Teatrın problemlərinə keçirik. Sirr deyil ki, bir sıra teatrlarda ixtisaslı kadr, əsasən də aktyor və onların nəsil məsələsidir.

Firudin Məhərrəmov: "Gənclər çox azdır. Baxmayaraq ki, yeni nəsil var və hazırda bizdə çalışmaq istəyən aktyor təhsilli üç gənci truppaya cəlb edə bilərik. Onlara böyük ehtiyacımız var. Amma nə edək ki, aktyor ştatında yer yoxdur. Ştatlar doludur və heç kimi boş-boşuna götürmək olmur. Yəqin ki, nazirliyə bu barədə müraciətimiz olacaq. Texniki işlərlə bağlı da problemimiz var. Mən 1988-ci ildə bu teatra gələndə bir quruluş hissə müdirimiz var idi. Təsəvvür edin ki, o, həm rəssam, həm mühəndis, həm də səhnə maşinisti idi. Səhnədə əməlli-başlı konstruksiya qururdu. Əsas yaradıcı təxəyyül və zövqün olmasıdır ki, o da bəzilərində yoxdur. Bu gün ölkədəki 1-2 teatrı çıxmaq şərtilə bu sahədə mütəxəssis yoxdur. Hazırda bizə peşəkar quruluş hissə müdiri, qrim ustası, səhnə maşinisti lazımdır. Sözsüz ki, illərlə işləyən insanların da yığdığı təcrübə və prosesi mənimsəmələri faktdır. Amma teatr kollektiv işdir, axı. İşıq rəssamı sarıdan da çətinliklər var və bunun da öhdəsindən gələnlər azdır. Teatrımızın yaxşı baş rəssamı var (Elşən Sərxanoğlu) və o, rejissor ideyasını verdikdən sonra xırdalığadək düşünüb öz həll formasını gətirə bilir. Əslində, bütün bunlar cari və asanlıqla həll olunacaq problemlərdir. Amma bu məsələlərin yoluna qoyulması üçün teatra direktor lazımdır. İnşallah, bu məsələ də həll olunar...".

Məlumat üçün deyim ki, teatrda tamaşalar şənbə və bazar günləri oynanılır. Tamaşaların bilet qiymətləri uşaqlar üçün 3, böyüklər üçün 5 manatdır. Repertuarda 22 tamaşa var və onların 9-u uşaqlar üçündür.



Bu məqamda bayaqdan zaldakı boş oturacaqlardan, sonra isə boş səhnədən bizi izləyib, söhbətimizə qulaq kəsilən teatrın gənc rejissoru Ümid Abbas Nihanini də söhbətə cəlb edirəm. Nəsillər arasındakı müqayisəli mülahizələr daim maraqlı olur. Firudin müəllim səxavətlə gənc həmkarına meydan verir.

Yeri gəlmişkən, teatrda baş rejissordan başqa üç quruluşçu, bir də rejissor var. Baş rejissor "Ümid uşaq və yeniyetmələr üçün Yusif Əzimzadənin "Nəsrəddin şah" tamaşasını hazırlayır. Maraqlı fikirləri var" təqdimatı ilə sözü gənc həmkarına verir.

Sağ-solumdakı iki rejissoru iti nəzərlər ilə süzüb "Firudin müəllim, doğrudanmı hər aşığın öz dövranı var?", – deyə soruşuram. Xasiyyətim kəsilsin, həmsöhbətlərimin damarını tutmaq üçün naqolay yollar seçmək adətimdir. Hiss edirəm, hər zaman təmkinli olan Firudin müəllimin sualımdan heç xoşu gəlmədi. Elə gənc həmkarı da yerində qurdalandı.

Cavabı uzaqdan götürən baş rejissor "Gənclərlə mütləq dialoq bağlamalıyıq. Onların təbiətindəki çılğınlığı da anlamaq gərək. Onlara meydan verib, nəyə qadir olduqlarını görməliyik. Onlar da yaşlı nəsildə səhv tutmaqdan çox, doğrularını, qətiyyət və istəklərini əmələ çevirməlidirlər", – deyərək gənc rejissoru meydana "atır".

Gəncləri çox az olan (aktyor truppasındakı 40 nəfərdən cəmi 6 nəfərin yaşı 25-35 arasındadır) teatrın rejissorunu söhbətə gətirmək üçün mən də "Bəlkə gənclər Ümidə qoşulub gələcəklər", – deyə əlavə edirəm.

"Ümidə qoşulub gələcəklər deyəndə ki, mən hələ buranın atmosferini öyrənməyə çalışıram. Sumqayıtda teatra marağı olan gənclər çoxdur. Bu şəhərdə böyümüşəm, uşaqlığım da bu teatrda keçib. Əslində, yeni bütün fikirlər köhnə çərçivələrdən aşmaqla yaranır. Amma gərək sən həmin çərçivələri biləsən ki, onları da asan keçəsən. Hələ ki öyrənirəm. Çünki rejissor auditoriyada öyrənir, səhnədə yetişir" deyən Ümidlə daha ətraflı söhbəti növbəti yazılardan birinə saxlayıb Firudin müəllimin müşayiəti ilə qrim otaqlarına qalxırıq.

İlk olaraq 20 ildir bu teatrda çalışan Əməkdar artist Xatirə Süleymanovanın qonağı oluram. Hələ də üzünü tərk etməyən ılıq təbəssümünü qorumağa çalışdığı gənclik ədasına qatıb bu səhnədəki obrazları, ümumən sənətdə keçən illərindən danışır. Sənətə bağlılığı üz-gözündə izlər qoyan Xatirə xanım "Səhnənin tozunu udan aktyor, aktrisa ondan qopa bilmir" deyir. Sözsüz ki, mən də ürəyimdə "nə yaxşı ki, qopa bilmir" deyib qriminə (utancaq qrim ustası məni görən kimi adını belə demədən otaqdan çıxır) son toxunuşlarını edir. Aktrisanı ayna ilə baş-başa qoyub keçirəm bayaqdan səhnə geyiminin içində narahatlığı üzündən oxunan Əməkdar artist Cəlal Məmmədovun yanına. Fərqimə belə varmadan (ya da vararaq) öz-özünə "Çoxdandı bu tamaşanı oynamıram. Deməli, kökəlmişəm. Xüsusən jilet məni sıxır" deyir. Yəqin istəyir ki, ona "Yox, əksinə, çox yaraşıqlı görünürsüz" iltifatını edim.

Xəsislik edib keçirəm salam-kalama. Son vaxtlar səsi daha çox dublyajlardan gələn aktyorun bir az haqlı, bir az da ağrılı giley-güzarlarına qulaq verirəm: "Təəssüf ki, aktyor sənətinə hələ də dırnaqarası baxanlar var. Yəqin bu da dövrlə əlaqədardır. Bir az da əməkhaqqı ilə. Dublyaj olmasa, mən acından ölərəm. Ona görə də kanal-kanal gedib, gecə-gündüz işləyirəm. Amma teatrdan da qopa bilmirəm, demək olar ki, bütün tamaşalarda varam. Şükür ki, teatra "sobes" kimi baxıb, ildə bir oyunla kifayətlənmirəm. Durmadan öz üzərimdə çalışıram və nəticədə rejissorların da axtardığı aktyor kimi qala bilirəm", – deyib qəhqəhə çəkir.

Teatrın "Tərəqqi" medallı aktyoru Habil Xanlarov isə üçdəqiqlik söhbətinə Füzuli Dövlət Dram Teatrından başlanan 33 illik yolu sığdırmağa çalışır. Ümumilikdə 300-dən çox irili-xırdalı rollar oynayan aktyor yeni rollar arzusu ilə, özü də böyük şövqlə tamaşasına hazırlaşır.

Yenidən səhnəyə qayıtmalı oluram. Tamaşanın baş qəhrəmanı adəti üzrə hamıdan əvvəl səhnədədir. Deyəsən, bayaqkı təlimatına əməl olunub-ovunmadığını yoxlayır. Truppa müdiri ilə ayaqüstü zarafatlaşır. Kulisin iynəli zarafatlarına bələd olduğumdan "sülh çağırışı" ilə söhbəti dəyişməyə çalışıram. Sözsüz ki, cəhdim pis alınmır və Rauf Atakişiyevi truppa müdirinin əlindən "alıb" ayaqüstü söhbətə çəkirəm.

O da bir teatrın aparıcı aktyoru olmağın verdiyi özünəinamla "Hər şey göz qabağındadır. 31 ildir bu teatrdayam. Burada fəhlə kimi işə başlamışam. Eh, bu səhnədə kimləri görməmişəm ki... Dövrlər arasında yerlə göy qədər fərq var və mən o dövr üçün qəribsəyirəm, yaman darıxıram. Onu da bilirəm ki, teatrsız yaşaya bilmərəm" deyir. Tamaşada uğursuz ata rolunu oynayan baş qəhrəmanla zarafatyana sağollaşıram: "Amma heç yaxşı ev yiyəsi deyilsiniz. Püreni keçdim, heç olmasa bir qurtum çay da vermədiniz", – deyib artıq dəmə qoyulan çayniki göstərirəm.

Rauf müəllimin şaqraq qəhqəhəsi boş salonda cingildəyir. İkimiz də səhnə arxasına keçirik. Bir azdan tamaşa başlayacaq. O, artıq foyedə toplaşan tamaşaçılarla yeni görüş üçün dəqiqələri saymağa başlayır. Mən də Sumqayıt-Bakı yolunun pik saatına düşməmək üçün ən qısa yolun hesabına...

**Həmidə Nizamiqızı**

# Ümummilli liderin 100 illiyinə həsr olunmuş Türk Dünyası Mədəniyyət Forumu keçiriləcək



Xəbər verdiyimiz kimi, Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilib. Bu barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı fevralın 7-də Baş nazir Əli Əsədov tərəfindən imzalanıb. Ümumilikdə 17 bənddən ibarət plan üzrə tədbirlərin həyata keçirilməsi üzrə əlaqələndirici orqan Mədəniyyət Nazirliyi müəyyən edilib. Tədbirlərin qrafiki 2023-cü ilin mart ayından dekabr ayınadək dövrü əhatə edir.

Plana əsasən, may-iyun aylarında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun keçirilməsi nəzərdə tutulur.

Forum çərçivəsində Beynəlxalq Türk Akademiyası ilə birgə Türk dünyasında ortaq mədəni irsin, tarix-memarlıq abidələrinin qorunması, bərpası və tanıdılmasına həsr olunmuş tədbirin təşkili, həmçinin TÜRKSOY-a üzv ölkələrin UNESCO Milli Komissiyalarının 9-cu toplantısı və Türk dünyasının mədəni marşrutunun təqdimatı keçiriləcək. Eyni zamanda, Türk dünyası mədəniyyət paytaxtlarının Şuşa şəbəkəsinin yaradılması və ilk görüşünün təşkili, eləcə də TÜRKSOY Muzeylər Birliyinin toplantısının keçirilməsi planlaşdırılır.

Qeyd olunan işlərin icrası Mədəniyyət Nazirliyi ilə yanaşı, Heydər Əliyev Mərkəzi, Elm və Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Əqli Mülkiyyət Agentliyi, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə tapşırılıb.

"Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı 2023" ilinin rəsmi açılışı isə mart ayına nəzərdə tutulur. Tədbirin təşkilatçıları Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsidir.

Şuşada VI "Xarıbülbül" Beynəlxalq Festivalı ənənəvi vaxtında – may ayında keçiriləcək. Tədbirlər planında festivalın təşkili ilə bağlı işlər Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda Xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə tapşırılıb.

## "Bir şair ömrü"

### İslam Səfərlinin 100 illik yubileyi qeyd edilib



Fevralın 13-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında görkəmli şair, dramaturq, Əməkdar incəsənət xadimi İslam Səfərlinin (1923-1974) 100 illik yubileyinə həsr olunmuş "Bir şair ömrü" adlı tədbir keçirilib.

Tədbirdə şairin zəngin yaradıcılığı, lirik və vətənpərvərlik ruhlu, doğma Azərbaycanı tərənnüm edən şeirləri, bir-birindən maraqlı poemaları, dram əsərləri, eyni zamanda tərcüməçilik fəaliyyəti haqqında geniş söhbət açılıb.

İslam Səfərlinin əsərlərindən ibarət elektron kitab sərgisi, şairin həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş olunub, nəğməkar şairin sözlərinə bəstələnmiş mahnılar səsləndirilib.

Sonda ədibin ailə üzvləri onunla bağlı xatirələrini bölüşüblər və kitabxanaya kitablar hədiyyə ediblər.

## Xalq rəssamı Arif Hüseynovun "Azərbaycan nağılı" sərgisi açılacaq

Fevralın 17-də Azərbaycan Milli Xalça Muzeyində Xalq rəssamı Arif Hüseynovun "Azərbaycan nağılı" adlı sərgisi açılacaq.




"Azərbaycan nağılı" adlı sərgi Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, "Azərxalça" ASC, Rəssamlar İttifaqı və Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə keçiriləcək.

Sərgi Arif Hüseynovun 80 illik yubileyi və yaradıcılığının 55 iliyi münasibətilə Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Xalça Muzeyi, "Azərxalça" ASC və Azərbaycan Rəssamlar İttifaqının birgə təşkilatçılığı ilə ərsəyə gəlib.

Sərgidə rəssamın geniş və rəngarəng yaradıcılıq aləmindən bir silsilə – Azərbaycan xalq nağıllarına, hər kəsin tanıdığı və sevdiyi nağıl obrazlarına həsr etdiyi 54 qrafik əsər nümayiş olunacaq.

Ekspozisiyaya daxil edilən, rəssamın ilk dəfə rəqəmsal çap formatında işlədiyi əsərlərində nağıllarımıza parlaq və fərdi cizgilərlə yeni həyat bəxş edilib, onlardakı sehr, müdriklik, gözəllik, ülviyyət, xalqımızın mifoloji dünyagörüşü xüsusi peşəkarlıqla təsvir olunub. Arif Hüseynovun özünəməxsus, orijinal üslubda əsl sənətkarlıq və sevgi ilə yaratdığı əsərlər Azərbaycanın xovsuz və xovlu xalçalarının məşhur kompozisiyaları ilə haşiyələnib.

"Azərbaycan nağılı" sərgisi fevralın 24-dək davam edəcək.

## Kim boynuna alar ki?...



Çağımızın texnoloji yenilikləri, ələlxüsus da insanlığı əsirinə çevirən sosial şəbəkələr könüllü manqurtlar yaratmaqdadır. Daha nə dəvə dərisinə, nə başın qırxılmasına, nə də gün altında dözülməz ağrılara tərk edilməyimizə ehtiyac yoxdur...

Ötən həftə Dövlət Pantomima Teatrının 14 nəfər aktyoru səhnədə 50 dəqiqə ərzində kəlmə kəsmədən dönə-dönə "Manqurtsan, hamınız manqurtsuz, indi də bir-birinizə təkrar edin: manqurtlar!" – dedi və gülə-oynaya çıxıb getdilər...

Teatrın ələnib yenidən özünə qayıdan oyunçularını yenə öz ətrafına yığan Xalq artisti Bəxtiyar Xanızadənin yetirmələri illər əvvəl ayrı bir rənglə o zamanın mübhəm görünən mətləblərini bu günün apaydın aynasında bizə yenidən göstərdilər.

Qırğız yazıçısı Çingiz Aytmatovun "Əsrə bərabər gün" romanının motivlərinə bir daha müraciət edən köhnə-yeni mimçilər "Manqurt"a daha parlaq həyat verdilər. Psixo-plastik düşüncəsini bizimlə bölüşənlər Ceyhun Dadaşov (rejissor həm də juanjuanların ümumiləşmiş obrazında çıxış edirdi), Əməkdar artistlər Nargilə Qəribova, Səbinə Hacıyeva, mimçilər Əli Əlizadə, Elnur İsmayılov, Elnur Rzayev, Nurlan Rüstəmov, Elxan Şahalıyev, Cavad Nuriyev, Nuridə Musabəyli, Səbirə Həsənova, Solmaz Bədəlova, Zəhra Hüseynova və Oqtay Kazımov idilər.

Səhnə işinin ideya müəllifi Xalq artisti Bəxtiyar Xanızadə, rejissoru və musiqi tərtibatçısı Ceyhun Dadaşov, rəssamı Nargilə Qəribovadır.

Adi hisslərin, qohumluq əlaqələrindən çox insani münasibətlərin bəşər övladını birləşdirən əsas dəyər olduğuna diqqəti yönəldən əsər, sözsüz ki, məhz manqurtlarla bağlı əhvalatından dolayı bundan əvvəlki və yəqin həm də sonrakı rejissorların diqqətini çəkib və çəkəcək. Amansız mətləbi "Manqurt" adı ilə mimlərin dilində izaha çalışan tamaşa izləyicisini psixoloji gərginlikdə saxladı desəm, yanlış olmaz.

İlk olaraq yaranış, parçalanma, kölə təfəkkürü, asan idarəetmə və ölümü könül xoşluğu ilə qəbul kimi ağır mətləblər sadalandı. Sonra üstünə bir fincan qəhvə içilib havadan, sudan danışıldıqdan sonra mimçilər həyat və onun ətrafındakı mənasız prinsiplər, çox sonralar sabun köpüyü kimi görünəcək dəyərlər üzərində oyun "çıxardılar".

Əsas qayə də bir idi: insandan asan idarə olunan canlı yoxdur və ən sadiq kölə məhz canlıların ən şüurlusu olan insandır.

Bundan dəhşətli həqarət ola bilərmi? Var. Özünü inkar etmək və bu sapmada yalançı bəxtiyarlıq da məhz insan oğlunun hələ manqurtlaşmadan öncəki təyinidir. Dözüb həzm edə biləcəksənsə, bir də manqurtlaşmış halına bax.

– Doğrudan a, yaxşı yadıma düşdü, səni kim manqurtlaşdırdı?

– Əlbəttə ki, sən.

– Yaxşı, bəs məni?

– Ha-ha, yəqin ki, bunu da mən elədim.

– Nə yaxşı, onda gəl oynayaq.

Çərpələngini üfürə-üfürə bir-birinin arxasınca qaçan, qaranlıqlarda kor at kimi çapan, qarabatdaq kimi palçığa batan, özündən sapıb gah göyün yeddinci qatından, gah da torpağın ən dərin təkindən özünə çırpılan, üz-gözünə qətrə-qətrə səpələnən də yenə o (oxu insan) özüdür.

Atymatovun məşhur romanındakı manqurtla bağlı hissəsindəki məhz bu fəryadı – "Torpağı almaq olar, mal-dövləti almaq olar, lap adamın həyatını da almaq olar, ancaq adamın hafizəsinə kim qəsd edə bilər, bunu kim fikirləşib tapıb" kimi dözülməz sualı səssiz-səmirsiz (keçidlərdəki kollektiv şəkildə, ya da tək-tək deyilən nidaları, qısa replikaları çıxmaq şərtilə) dönə-dönə, tam fərqli tematik hərəkət-planlarda təqdim edənlər tamaşaçıya əsərin ideyasını qəbul etdirə bildilər.

İlk aktlardan nəzərə çarpan əsas cəhət mütəşəkkil və baxımlı kollektiv iş idi. Əsərin də ideyası bunu şərtləndirdiyindən bütün tarazlığa hesablanmış gedişlərin başlıca mahiyyəti bu idi.

Tamaşada ən təsirli səhnə isə, sözsüz ki, kütləvi rəqsdən sonra zorakı dağınıqlıq və əsirlərin bir-birinin başlarına zif (başı sıxmaq üçün dərindən hazırlanmış işgəncə aləti) keçirmələri idi. Məhz bu zaman işgəncənin ağırlığı və onun aktyorlarda ifadəsi üçün unikal formanın tapıntısı özünün simmetrik keçidini yaşadı. Ən maraqlısı isə səhnədə aktyor (ifaçı) ilə tamaşaçı arasında heç bir maneə, imtina səddi qalmamışdı. Hamı asanlıqla nəyə çevrildiyini qəbul etmişdi...

**Həmidə Nizamiqızı**

## Gəncə teatrı repertuarını yeni tamaşalarla zənginləşdirəcək

Azərbaycan peşəkar milli teatrının təşəkkül tapmasının 150 illiyini istər paytaxtdakı, istərsə də paytaxtdan kənardakı teatrlar yaddaqalan etməyə çalışırlar. Gəncə Dövlət Dram Teatrı da yubiley ilini maraqlı repertuarla keçirmək niyyətindədir.

Ötən il daha çox eksperiment tamaşalara üstünlük verən sənət ocağında bu il üçün nəzərdə tutulmuş repertuar planına əsasən, şair, yazıçı-dramaturq Hidayətin "Burdan min atlı keçdi" (rejissor Əməkdar incəsənət xadimi Əskər Əskərov) əsəri dövlət sifarişi yolu ilə hazırlanacaq.

Sabit Rəhmanın "Yalan"ı (rejissor Əməkdar incəsənət xadimi Bəhram Osmanov), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu"su (rejissor Elşad Əhmədov) bu il teatrda səhnə həyatı görəcək. Türk yazıçısı Əziz Nesinin "Toros canavarı"nın da səhnəyə qoyulması planlaşdırılır.




Hazırda teatrda paralel olaraq iki yeni səhnə işinin – Avksenti Saqarelinin "Xanuma" (quruluşçu rejissor Mikayıl Mikayılov) və yerli müəllif Aydın Murovdağlının "Əbədiyyət marşalı" (Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə hazırlanan tamaşanın quruluşçu rejissoru Yusif Cəfərovdur) əsərlərinin məşqləri gedir.

"Heydər Əliyev İli"

## Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

### İllərin xronikasından (12)

**1975-ci il 20 noyabr**

Üzeyir Hacıbəyovun Bakıdakı ev-muzeyinin açılışı olub. Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə nitq söyləyib. Müttəfiq respublikaların musiqi ictimaiyyəti nümayəndələrinin də qatıldığı mərasimdə açılışı bildirən lenti SSRİ Bəstəkarlar İttifaqının katibləri P.Savintsev və Q.Qarayev kəsiblər.

**1975-ci il 28 noyabr**

Heydər Əliyev Moskvada Üzeyir Hacıbəyovun 90 illik yubileyinə həsr olunmuş təntənəli gecədə iştirak edib.

**1975-ci il 13 dekabr**

Heydər Əliyev Bakıda bəstəkar Müslüm Maqomayevin 90 illik yubileyinə həsr olunmuş təntənəli gecədə iştirak edib.

**1976-cı il 28-30 yanvar**

Azərbaycan Kommunist Partiyasının XXIX qurultayı keçirilib. Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev hesabat məruzəsində respublikada son illərdə mədəniyyətin inkişafından, əldə edilən nailiyyətlərdən də söz açıb.

**1976-cı il 8 aprel**

Heydər Əliyev Bakıda Məşədi Əzizbəyovun heykəlinin açılış mərasimində çıxış edib. Yasamal rayonunda ucaldılan abidənin müəllifi heykəltəraş, Xalq rəssamı Tokay Məmmədov idi.

**1976-cı il 23 aprel**

Heydər Əliyev SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin katibliyinin Bakıda keçirilən geniş iclasının iştirakçılarını qəbul edib.

**1976-cı il 26 may**

Heydər Əliyev Azərbaycan yazıçılarının VI qurultayında nitq söyləyib. Proqram xarakterli nitqdə Heydər Əliyev Azərbaycan ədəbiyyatının keçdiyi yola ətraflı nəzər salıb, ədəbi fəaliyyətin aktual məsələlərinə toxunub.

*"...Azərbaycan ədəbiyyatı bu mərhələyə öz inkişafının bu ən mühüm dövrünə zəngin bədii ənənələrlə daxil olmuşdur. Bu ədəbiyyatın çoxəsrlik tarixi "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqif kimi söz sənəti bahadırlarının əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir...*

*Klassik Azərbaycan ədəbiyyatı öz inkişafında insana böyük məhəbbətlə dolu olan ecazkar, fəlsəfi lirikanın, orta əsrlərin ictimai və mənəvi buxovları əleyhinə çevrilmiş üsyankar, azadfikirli şeirinin parlaq yollarından keçmişdir...*

*Azərbaycan yazıçıları yeni yaradıcılıq nailiyyətləri qazanmışdır. Sovet ədəbiyyatı xəzinəsinə daxil olan bir sıra istedadlı əsərlər yaradılmışdır. Bunların arasında həm tarixi qəhrəmanlıq mövzusunda, həm bizim müasirimizin mənəvi simasını, gəncliyin axtarışlarını göstərən əsərlər, həm də "istehsalat mövzusu"nda əsərlər vardır...*

*Yazıçılarımızın zəhmətinə xalq yüksək qiymət verir, hökumətimiz yazıçıların yaradıcılığını yüksək qiymətləndirir. Son zamanlarda bir çox ədəbiyyatçıların orden və medallarla təltif olunması, onlara Sovet İttifaqının və respublikanın Dövlət mükafatlarının verilməsi buna parlaq və əyani sübutdur. Bir sözlə, keçən beş ildə Azərbaycan yazıçıları bizim yaradıcı ziyalıların ön cərgəsində olmuşlar.*

*... Ədəbiyyatın yaradıcıları gərək bizim müasir dövrümüzün əsas mövzularını daha dərindən, ideya və bədii cəhətdən daha yüksək səviyyədə həll etsinlər, bədii sözün təsir gücünü daha da artırsınlar... Oxucular sizdən ilhamlı və böyük yaradıcı zəhmətin nəticəsi olan əsərlər gözləyirlər. Onlar sizdən həyat haqqında elə bədii ümumiləşdirmələr gözləyirlər ki, Qorkinin sözləri ilə desək, həmin ümumiləşdirmələr gərək "varlığı əks etdirməklə bərabər, varlığın özündən yüksəkdə dayansın və insanın özünü də yüksəltsin".*

*...Cəmiyyətimizin inkişafının bütün mərhələlərində ədəbiyyatın və ümumiyyətlə, mədəniyyətin əsas vəzifəsi kütlələri tərbiyələndirmək olmuşdur. Bədii söz həqiqi vətənpərvərlər əməyi sevən, nəcib, mərd, yüksək şüurlu adamlar tərbiyə etməlidir.*

*...Yazıçıların qarşısında xüsusilə geniş fəaliyyət meydanı açılır. Axı, bədii söz insanların ağlına və ürəyinə daha tez yol tapır, daha dərindən nüfuz edir, onlara son dərəcə böyük təsir göstərir. Təəssüflə qeyd etməli oluruq ki, ədəbiyyatçılarımız böyük və məsuliyyətli mənəvi tərbiyə işində hələ fəal iştirak etmirlər...*

*Azərbaycan ədəbiyyatına hər il yeni, gənc, bacarıqlı qüvvələr gəlir. Bu qanunauyğun prosesdir. Gənclərin bir çoxu yetişib püxtələşmiş, ictimaiyyətin haqlı rəğbətini qazanan sanballı əsərlər yaratmışdır. Lakin biz istərdik ki, gənclərin istedadı daha tez parlasın, onların gənclik ehtirası, yaradıcılıq eşqi yüksək bədii əsərlərdə təcəssüm etsin. Təəssüf ki, gənclərin yetişib püxtələşməsi prosesi bəzən çox ləng gedir...*

*Bizdə yaradıcı ziyalıların bir çox dəstələri – yazıçılar, bəstəkarlar, rəssamlar, arxitektorlar, teatr işçiləri, kinematoqrafçılar, jurnalistlər vardır. Yazıçılar İttifaqının vəzifələri haqqında bu gün deyilən sözlər bilavasitə bütün yaradıcılıq təşkilatlarına da aiddir. Bütün yaradıcılıq ittifaqlarının sıx əlaqəsi, təcrübə mübadiləsi, onların səylərinin birləşdirilməsi mədəniyyətimizin gələcək inkişafı üçün mühüm şərtdir. Lakin yaradıcılıq həyatında Yazıçılar İttifaqı xüsusi yer tutur. Yazıçılar, onların əsərləri incəsənətin bütün növlərini ideyalarla, obrazlarla, süjetlərlə qidalandırmalıdır. Yeni kino, teatr, musiqi və rəssamlıq əsərlərinin meydana gəlməsi sizin səyinizdən, istedadınızdan, ustalığınızdan çox asılıdır. Ümidvarıq ki, belə səmərəli əməkdaşlıq nəticəsində bütün yaradıcılıq növləri nümayəndələrinin ustalığı və ilhamı ilə böyük zəmanəmizə layiq yeni epik əsərlər meydana gələcəkdir...".*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

İslam Səfərli – 100

# “Əldə qələm, dizdə varaq...”

Fevralın 12-də nəğməkar şair, dramaturq, tərcüməçi, Əməkdar incəsənət xadimi İslam Səfərlinin (1923-1974) anadan olmasının 100-cü ildönümü tamam oldu. Ədibin həyat yolu və yaradıcılığı ilə bağlı bəzi maraqlı məqamları diqqətə çatdırırıq.



İslam Əhməd oğlu Səfərli 1923-cü ildə Naxçıvanın Şəkərabad kəndində anadan olub. Naxçıvandakı 1 saylı məktəbi bitirib. “Nizami yurdunda” adlı ilk şeiri 17 yaşında ikən, 1940-cı ildə “Ədəbiyyat qəzeti”ndə dərc olunub. 1941-ci il müharibəsi başlayanda tay-tuşları kimi o da cəbhəyə gedib. Şimali Qafqaz, Krım, Ukrayna cəbhələrində döyüşüb. Müharibə illərində “Qızıl əsgər” və “Qırmızı bayraq” cəbhə qəzetlərində oçerk, məqalə və şeirlərini çap etdirib. Müharibə mövzusu şairin poemalarında da (“Sınaq gecəsi”, “Çex qızının məhəbbəti”, “Yaralı nəğmə”, “Qığılcım”, “Fırtınalar adası”, “Dəfinə” və s.) öz əksini tapıb. Ordudan tərxis olunduqdan sonra “Şərq qapısı” qəzeti, Naxçıvan Radio Komitəsi və “Azərbaycan gəncləri” qəzetində (bölgə müxbiri) fəaliyyət göstərib.

İ.Səfərli Azərbaycan poeziyasında sözlərinə ən çox mahnı bəstələnmiş şairlərdən biridir. Görkəmli bəstəkarlardan Cahangir Cahangirov, Tofiq Quliyev, Arif Məlikov, Səid Rüstəmov, Şəfiqə Axundova, Ramiz Mirişli, Emin Sabitoğlu, Nəriman Məmmədov, Tamilla Məmmədzadə və başqaları şairin sözlərinə qəlboxşayan musiqilər yazıblar. “Ana”, “Bakı, sabahın xeyir!”, “Pıçıldaşın, ləpələr”, “Dan ulduzu, bir də mən”, “Nə vaxta qaldı”, “Ağ şanı, qara şanı”, “Şəhla gözlüm”, “Qonaq gəl bizə” və s. mahnılar dinləyicilər tərəfindən maraqla qarşılanıb, bu gün də sevilə-sevilə dinlənilir.

İ.Səfərlinin “Göz həkimi”, “Ana ürəyi”, “Yolayrıcı”, “Xeyir və Şər”, “Dədəgünəş əfsanəsi” və s. pyesləri ölkəmizin teatrlarında tamaşaya qoyulub, maraqla qarşılanıb.

Şair həmçinin A.Puşkin, M.Svetlov, S.Marşak, M.Kərim, M.Tursunzadə, K.Koladze, Y.Dolmatovski və başqalarının əsərlərini dilimizə çevirib. 1973-cü ildə respublikanın “Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülən İ.Səfərli bir il sonra, noyabrın 6-da vəfat edib. 2013-cü ildə 90 illiyi dövlət səviyyəsində qeyd olunub.

### Üzeyir bəylə görüş, ali təhsil yolu...

İ.Səfərlinin istedadını ilk olaraq dahi bəstəkar Üzeyir Hacıbəyli Naxçıvanda olarkən, xalq deputatı kimi seçicilərlə görüşü zamanı kəşf edib. Professor Ramazan Xəlilov xatirələrində bu barədə deyib: “1945-ci il idi. Üzeyir bəy Naxçıvana seçiciləri ilə görüşə getmişdi. Biz orada “Qonaq evi”ndə qalırdıq. Bir gün “Qonaq evi”nə əsgər paltarında cavan bir oğlan gəldi. Müharibədən yenicə qayıtmış bu gənc oğlan İslam Səfərli idi. O, Üzeyir bəylə görüşdükdən sonra yazdığı şeirləri göstərdi. Sərraf söz ustası olan böyük sənətkar onları oxudu və şeirləri bəyəndiyini söylədi. Gənc oğlana Bakıya gəlməyi tövsiyə etdi. Bildirdi ki, o, mütləq ali təhsil almalıdır. İslam utana-utana Bakıya gəlmək üçün maddi durumunun məhdud olduğunu dedi. Bu zaman Üzeyir bəy mənə işarə etdi ki, bu gənc oğlana pul verim. Mən də zərfə beş yüz manat qoyub ona verdim. Üzeyir bəy onu Bakıda gözləyəcəyini söylədi”.

Çox keçmir ki, İslam Səfərli Bakıya gəlir və birbaşa Üzeyir bəyin yanına gedir. Dahi bəstəkar onun Azərbaycan Dövlət Universitetinə (indiki BDU) qəbulu üçün rektor akademik Abdulla Qarayevə tapşırır. Beləliklə, gənc şair 1946-1951-ci illərdə universitetin Filologiya fakültəsində təhsil alır.

### “Hanı o mənə oxşayan Qara İslam?”

Tələbəlik illərində yazdığı şeirlər Xalq şairi Səməd Vurğunun da diqqətini çəkir.

Yazıçı Əlfi Qasımov xatirələrində yazır: “Üçüncü kursda oxuyurduq. Böyük şair tələbələrə qonaq gəlmişdi. O, xitabət kürsüsünə qartal kimi sinə gərib müasir poeziyamızın qarşısında duran vəzifələrdən danışdı. Səməd Vurğun nəyi isə xatırlayıb susdu. Ətrafa göz gəzdirdi və dedi:

– Hanı o mənə oxşayan qara İslam?

İslam cəld ayağa qalxdı və dedi:

– Buradayam, Səməd müəllim!

– Bəri gəl görüm... İslam sıxıla-sıxıla kürsüyə yaxınlaşdı.

Səməd Vurğun soruşdu:

– Yadındamı, Yazıçılar İttifaqında ötən “Gənclər günü”ndə bir şeir oxudun. İndi həmin şeiri oxuya bilərsənmi?



– Oxuya bilərəm.

Səməd Vurğun kənara çəkildi. İslam xitabət kürsüsünə qalxıb “Beşik başında” şeirini şövqlə oxudu. Alqış səsləri salonu titrətdi...”.

### Vətənin poetik xəritəsi

İ.Səfərli Vətən sevdalı şair kimi tanınıb. O, şeriyyəti ilə sanki Azərbaycanın poetik xəritəsini canlandırıb. Ana yurdun təbiət mənzərələri, təbii sərvətləri onun qələmi ilə yüksək poetik dillə vəsf olunub. “Bağrıma basmışam Azərbaycanı – Araz bir qolumdur, Kür bir qolumdur”, – deyən şair həm də bu sevgisinin onu əbədi yaşadacağını ifadə edib:

*Günlər keçir birəm-birəm,*  
*Bir uğurlu yol gedirəm.*  
*Yurdumuzu vəsf edirəm,*  
*Əldə qələm, dizdə varaq,*  
*Mənə qalan bu olacaq.*

“Abşeron”, “İstisu”, “Batabata gəlmişəm”, “Bilgəh bağları”, “Bərdə”, “Masallı”, “Gəlin daşı”, “Xalxal meşəsi” və s. şeirlərdə müəllif insanlara təkcə Vətənin dilbər guşələrini tərənnüm etmir, həm də bu məkanları qarış-qarış gəzməyə, zövq almağa çağırır:

*Bakı işıqlarla alışan kimi,*  
*Parlayır döşündə bir nişan kimi.*  
*Sahil qəndilləri kəhkəşan kimi,*  
*Hüsnünü daima bəzər, Abşeron,*  
*Mavi ətəyindir Xəzər, Abşeron!*

### Hansı əsəri Bağırovu qəzəbləndirmişdi?

Nəğməkar şair Vətənə ülvi məhəbbətlə bağlı olsa da, onu sevgiylə tərənnüm etsə də, gözlərini qan örtmüş əliqanlı rejimin rəğbətini qazana bilmirdi. Mərhum şair, ədəbiyyatşünas, tərcüməçi Qasım Qasımzadə yazır: “Yaşadığımız dövrlərin dözülməz sitəmlərini ancaq 37-ci il qurbanları çəkməmişdi. 40-cı illərdə, həmçinin 50-ci illərin əvvəllərində yaradıcı ziyalıların bütün nəsilləri vahimə-qorxu içərisində idi. O vaxtlar az-çox cürətlə yazılan hər hansı əsər “Qlavlit”dən əlavə partiya süzgəcindən, Mərkəzi Komitənin nəzarətindən keçmədən işıq üzü görə bilməzdi. İslamın Dövlət Dram Teatrında bəyənilmiş “Göz həkimi” pyesi bir bədxahın təhriki ilə Mərkəzi Komitə bürosunda müzakirə ediləndə əsərin müəyyən məqamlarından şübhələnən, xüsusən amirlik-diktatorluq mücəssəməsi professor Şahbazovun simasında özünü görən Mir Cəfər Bağırov qəzəblənmiş, pyesi də, onun müəllifini də təhqiramiz hücuma məruz qoymuşdu.

O gün İslamın ad günü imiş. Axşama az qalmış qapının zəng səsinə çıxdım. İslam idi. İçəri keçmədi. Bir qədər kövrək səslə dedi ki, səni öz ad günümə çağırıram. Məsələdən də halisən. Özün bilərsən... Gəlsən də sağ ol, gəlməsən də, inciyən deyiləm. Zarafatla əlavə etdi: “Xalq düşməninin məclisində iştirak etməyə cəsarətin çatırsa, buyura bilərsən. Yenə də özün bil...”.

### “Həyatı tez tərk edəcəyəm...”

İslam Səfərli sanki qısa ömür yaşayacağını əvvəlcədən duyub öz yaxınlarına deyərmiş: “Mən canım qədər sevdiyim torpağın vurğunuyam. Həyatı tez tərk edəcəyəm. Sizə start meydanını qoyub gedirəm. Bu meydanı mənə layiq qoruyun, gələcək nəsillərə layiqincə çatdırın...”.

Bəli, İslam Səfərli həyatı tez tərk eləyib – yaradıcılığının ən qaynar çağında, 51 yaşında. Ancaq şair bir-birindən mənalı, nəğməyə dönmüş şeirləri, dram əsərləri ilə adını unudulmayanların sırasına yazdırıb...

**Hazırladı: N.Məmmədli**

# Şəhid Murad Nağıyev haqqında sənədli film və kitabın təqdimatı



Bakı Gənclər Mərkəzinin (Suraxanı rayonu Bakıxanov qəsəbəsi) təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi leytenant, tank komandiri Murad Nağıyev haqqında “Qayıtsaydım...” adlı sənədli filmin və “Murad” adlı kitabın təqdimatı keçirilib.

Tədbirdə şəhidin doğmaları və yaxınları, döyüş yoldaşları, ictimaiyyət nümayəndələri, Milli Məclisin deputatları Elman Nəsirov, Fazil Mustafa iştirak ediblər.

Şəhidin həyatı, keçdiyi döyüş yolu haqqında məlumat verilib və sənədli film nümayiş etdirilib.

Murad Mayıl oğlu Nağıyev 9 fevral 1997-ci ildə Qazax rayonunda doğulub. Kiçik yaşında ikən ailəsi Bakıya köçüb. Murad Bakıxanov qəsəbəsində 271 nömrəli tam orta məktəbdə təhsil alıb. 2011-ci ildə C.Naxçıvanski adına Hərbi liseyə qəbul imtahanlarında iştirak edib və yüksək nəticə göstərərək İstanbulda Kuleli Hərbi liseyinə seçilib. 2015-ci ildə liseyi başa vurub və Ankarada Quru Qoşunları Məktəbinə daxil olub. 2016-cı ildə Azərbaycana qayıdıb və təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) davam etdirib.

Tank komandiri Murad Nağıyev 2020-ci il sentyabrın 27-dən, Vətən müharibəsinin ilk günündən döyüşlərdə iştirak edib, oktyabrın 11-də Cəbrayıl rayonu istiqamətində şəhid olub.

Bakıda II Fəxri xiyabanda dəfn olunub.

Ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” medalları (2020), 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni (2022) ilə təltif edilib.

# Türkmənçay müqaviləsinin 195-ci ildönümünə həsr olunan dəyirmi masa

Azərbaycanı iki yerə bölən Türkmənçay müqaviləsinin imzalanmasının 195-ci ildönümü münasibətlə fevralın 10-da AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunda dəyirmi masa keçirilib.

İnstitutun baş direktoru professor Kərim Şükürov giriş sözündə bildirib ki, Rusiya imperiyası ilə Qacarlar dövləti arasında 1826-1828-ci illər müharibəsinin yekunlarına, yəni 1828-ci il fevral ayının 10-da bağlanmış Türkmənçay müqaviləsinə əsasən, Azərbaycan torpaqlarının Araz çayından şimal hissəsi çar Rusiyasının, cənub hissəsi isə Qacarlar dövlətinin tərkibinə keçib. Bu müqavilənin şərtləri əsasında Qacarlar dövlətindən 40 min erməni Şimali Azərbaycana köçürüldü. Beləliklə, Azərbaycana elə bir tarixi zülm edildi ki, indi də bu zülmün qarşısında Azərbaycan xalqı əziyyət çəkir. Türkmənçay müqaviləsi ilə Azərbaycan torpaqlarının Araz çayı boyunca bölüşdürülməsi başa çatmış oldu.

İnstitutun icraçı direktoru İlqar Niftəliyev qeyd edib ki, erməni tarixşünaslığında Ermənistanın guya şərqi və qərbi hissələrə bölünməsi ideyası ilk dəfə II Dünya müharibəsindən sonra İosif Stalinin tapşırığı ilə sovet tarixşünaslığına gətirilib. Bunun səbəbi sovet rəhbərliyinin ölkənin cənub sərhədlərini yenidən nəzərdən keçirmək, onları 1914-cü il vəziyyətinə qaytarmaq planları idi. Bu planı həyata keçirmək üçün sovet rəhbərliyi 1945-ci ilin yazında 1921-ci il 16 mart tarixli SSRİ-Türkiyə müqaviləsinə (Moskva müqaviləsi) yenidən baxılması təşəbbüsü ilə çıxış etdi. Bundan sonra erməni tarixçiləri yuxarıdan göstəriş alaraq öz əsərlərində 1827-ci ildə Rusiya imperiyası tərəfindən işğal edilmiş Azərbaycanın İrəvan və Naxçıvan xanlıqlarının əraziləri və Moskvanın iddia etdiyi Türkiyə Cümhuriyyətinin Şərqi Anadolu əraziləri üçün müvafiq olaraq “Şərqi” və “Qərbi” Ermənistan saxta adları verərək öz əsərlərində fəal şəkildə işlətməyə başlayıblar. Beləliklə, ermənilərin Qacarlar dövlətindən və Osmanlı imperiyasından kütləvi miqrasiyası və Rusiya imperiyasının etnokonfessional siyasəti nəticəsində XX əsrin əvvəllərindən başlayaraq bu günə qədər davam edən etnik və ərazi münaqişələrinin əsası qoyulub.

Dəyirmi masada tarixçi alimlər Cəbi Bəhramov, Hacı Həsənov, Şahin Fərzəliyev və Eynulla Mədətli mövzu ilə bağlı çıxış ediblər.

Yaşar Kamal – 100

# Dünyanı min çiçəkli mədəniyyət bağçası sayan yazıçı

Türkiyə ədəbi nəsrindən söz açılanda ilk yada düşənlər sırasında Yaşar Kamalın adı çəkilir. O, türk romançılığının zirvəsi hesab edilir. Yaradıcılığında türk dilinin incəlikləri ilə xalq yaddaşını mükəmməl şəkildə birləşdirən yazıçı oxucuların dərin rəğbətini qazanıb. Əsərləri 40-dək dilə tərcümə olunan müəllif Türkiyədə və xaricdə çoxsaylı mükafatlara layiq görülüb. Bu il dünya şöhrətli yazıçının anadan olmasının 100 illiyidir.

Yaşar Kamal (Kemal Sadık Gökçeli) 6 oktyabr 1923-cü ildə Adananın Həmitə kəndində dünyaya göz açıb. Ailə Adanaya I Dünya müharibəsi illərində (1914-1918) Van gölünə yaxın Muradiyə mahalının Ernis (indiki Ünseli) kəndindən köçüb.

Yaşar Kamal ilk təhsilini Adananın Bürhanlı kənd məktəbində alır. Ancaq güzəranın çətinliyi üzündən təhsilini başa vura bilmir. Pambıq emalı zavodu, Adana Xalq evinin Ramazanoğlu kitabxanası və s. sahələrdə çalışır.

Erkən çağlardan poeziyaya maraq göstərir, musiqi ilə də maraqlanır. Anası isə onun musiqiçi olmasını istəmir. O, bu haqda xatirələrində yazır: “Saz çalmağı öyrənirdim. Yaxşı öyrənə bilmədim. Anam mənimlə razılaşmadı, etiraz etdi. Evin tək uşağı olduğum üçün qoymadı bu sənətin ardınca gedim. Dedi ki, ozan olub çöllərə düşəcək və evdə tapılmayacaqsan. El şənliklərində, bayramlarda həmişə aşıq Məcidlə bir olardım”.

Nəhayət, Yaşar Kamal özünü ədəbiyyatda, yaradıcılıqda tapır. 16 yaşında “Türk sözü” qəzetində fəaliyyətə başlayır. “Mərsiyələr” adlı ilk kitabı Adana Xalq evi tərəfindən 1943-cü ildə çap edilir. Xarici dilə tərcümə edilən ilk əsəri isə “Körpə” hekayəsi olur. Hekayə fransız, ingilis, italyan və rus dillərinə tərcümə edilir. Onun ilk hekayələr kitabı “Sarı isti”, ilk romanı isə “İncə Məmməd”dir. Bu roman Yaşar Kamalın vizit kartına çevrilir. Əsər ona Türkiyə ilə yanaşı, ölkə hüdudlarından kənarda da bir yazıçı kimi şöhrət qazandırır.

Müəllif dördcildlik “İncə Məmməd” romanını 1947-ci ildə yazmağa başlayır. Əsərin 1-ci cildi 1954-cü ildə tamamlanır və oxucuların böyük marağına səbəb olur. Romanda I Dünya müharibəsi ərəfəsində Anadoluda kənd ağalarının özbaşınalığı və camaatın buna qarşı davranışları çox incə boyalarla təsvir edilir.

Türk romançılığının şah əsərlərindən hesab olunan əsər onlarla dilə tərcümə olunur. Birinci cild 1955-ci ildə “Varlıq” adlı ədəbi mükafata layiq görülür. Yaşar Kamal “İncə Məmməd” çox cildliyini 32 ilə tamamlayıb.



Xalq yazıçısı Elçin Yaşar Kamalın 90 illik yubileyi (2013) münasibətilə qələmə aldığı məqaləsində bu məşhur romanın “təbii kolorit”ini yüksək qiymətləndirib: “...O zaman mən Yaşar Kamalın rus dilində – “İnostrannaya literatura” jurnalında – “İncə Məmməd” romanını oxumuşdum və bu o zaman idi ki, oxuduğum bir çox əsərə yeni ədəbiyyat yaratmaq həvəsi və iddiası ilə, əgər belə demək mümkünsə, bir ədəbi gənclik təkəbbürü ilə yuxarıdan aşağı baxırdım, ancaq “İncə Məmməd” xüsusən dərhal adamı ələ alan koloritinə (təbii koloritinə!) və yazı mədəniyyətinə görə mənim xoşuma gəlmişdi. Əlbəttə, o vaxt mənim ağlıma gəlməzdi ki, onilliklər keçəcək, bu onilliklər ərzində Yaşar Kamal “İncə Məmməd”in üzərində işləyəcək, “İncə Məmməd” dörd böyük clddən ibarət bir epopeyaya çevriləcək və bizim aramızda elə bir münasibət yaranacaq ki, başqa kitabları kimi, o dördcildlik “İncə Məmməd”i də belə bir avtoqrafla mənə göndərəcək: “Qədim dostum Elçinə və Nüşabə xanıma saygı və sevgilərimlə. Yaşar Kamal. 4.12.2006”.

Yaşar Kamalın “Üç Anadolu əfsanəsi” (1967), “Ağrı dağ əfsanəsi” (1970), “Dəmirçilər bazarı cinayəti” (1974), “İlanı öldürsələr” (1976), “Quşlar da getdi” (1978), “Dəniz küsdü” (1978), “Qala qapısı” (1985), “Qanın səsi” (1991), “Qarışqanın su içdiyi” (2002), “Dan yeri xoruzları” (2002), “Təkqanadlı bir quş” (2013) və s. roman və hekayələri Türkiyə ədəbi nəsrinin maraqlı nümunələrindən hesab edilir.

Əsərlərində insani dəyərləri hər şeydən üstün hesab edən yazıçı siyasətin sənətlə yanaşı olduğu qənaətinə gəlib. 1962-ci ildə Türkiyə İşçi Partiyasına (TİP) qatılan ədib əməkçi sinfin müdafiəçisi kimi çıxış edib. Partiyanın rəhbərlərindən biri olub.

“İnsan kainatda vücudu qədər deyil, ürəyi qədər yer tutar”, – deyən yazıçı 1970-ci ildən sonra qələmə aldığı əsərlərdə daha çox şəhər insanının qayğılarını təsvir etməyə çalışıb. Onun “İncə Məmməd” romanı da daxil olmaqla 9 əsəri əsasında film çəkilib, bir sıra əsərləri isə müxtəlif teatrlarda tamaşaya qoyulub. PEN Yazıçılar Dərnəyinin üzvü olan Yaşar Kamal 1973-cü ildə ilk dəfə Nobel mükafatına namizəd göstərilib. Sonralar da bu mükafata iddia edən yazıçı ömrünün sonunadək bu yoldan çəkilməyəcəyini deyib.

Yazıçının “Yer dəmir, göy mis” əsəri 1977-ci ildə Fransada ədəbi tənqidçilər tərəfindən ilin ən yaxşı xarici romanı seçilib. Ədib 1984-cü ildə isə Fransanın “Fəxri legion” ordeninə layiq görülüb.

“Mənim üçün dünya min çiçəkli bir mədəniyyət bağçasıdır. Bir çiçəyin yox olmasını dünya üçün böyük itki sayıram”, – deyən Yaşar Kamal 28 fevral 2015-ci ildə İstanbulda vəfat edib, Zəncirliquyu məzarlığında dəfn olunub.

**Savalan Fərəcov**

# Albanşünaslığın problemləri ilə bağlı elmi seminar

Fevralın 10-da AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda elmi seminar keçirilib.

İnstitutdan bildirilib ki, seminarda Qədim dillər və mədəniyyətlər şöbəsinin müdiri professor İlhami Cəfərsoy “Albanların dili və etnik mənsubiyyəti”, Arxeologiya və Etnoqrafiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Taleh Əliyev “Albanşünaslığın aktual məsələləri” mövzularında məruzələrlə çıxış ediblər.

Bildirilib ki, albanlar e. ə. IV əsr – b. e. IX əsrini əhatə edən on üç tayfadan ibarət dövlət yaradıblar. Həmin dövlət Göyçə mahalı ilə Azərbaycanın şimal rayonlarını əhatə edirdi.

Qeyd olunub ki, albanlar haqqında Türkiyənin Kayseri şəhəri yaxınlığında tapılan mixi yazılı mətnlərdə də məlumat verilir. Onların 38 və 52 hərfdən ibarət əlifbaları olub.

İnstitutun baş direktoru professor Nadir Məmmədli mövzunun aktuallığından danışıb. Sonda məruzələr ətrafında müzakirələr aparılıb.

# Müasir kinomuzda ədəbi dilin normalarına əməl olunurmu?

Ədəbi dil ümumxalq dilinin ən yüksək mərhələsidir. Bu dil cilalanmış, normaya salınmış, qayda-qanunları özündə sabitləşdirmiş, formalaşmış dildir. Bəs bu gün incəsənət, xüsusilə də kino sahəsində ədəbi dilin normalarına hansı səviyyədə əməl olunur? Bu sualım səbəbsiz deyil. Çünki son vaxtlar bir çox tamaşaçılar, eləcə də mütəxəssislər yeni çəkilən filmlərin, serialların dilindən gileylənirlər. Mən də hərdən ekran əsərlərində vulqar sözlərə rast gəlir, kasad, sönük dialoqlara şahid oluram.





Məlum olduğu kimi, bu il Azərbaycan kinosunun 125, "Azərbaycanfilm" kinostudiyasının 100 illiyidir. Milli kinomuz zəngin inkişaf yolu keçib. Kino salnaməmizi nəzərdən keçirəndə bu zənginliyi yaradanların hər baxımdan fədakarlığını görürük. Rejissor, ssenari müəllifi, operator, fotoqraf, işıqçı, qrim ustası və təbii ki, aktyorlar... Bir də kinonun dilinin qeydinə qalan redaktorlar. Etiraf edək ki, Azərbaycan kinosunun dilinin zənginliyi, səlisə-sahmanı, saflığı klassik filmlərimizdə daha çox hiss olunur. Necə deyərlər, görünən dağa nə bələdçi. Amma son illərdə çəkilmiş bir çox filmlərin dili ilə bağlı bunu deyə bilmirik. Düzü, heç özüm də bilmirəm ki, bugünkü rejissorları qınamaqda haqlıyam, ya yox? Amma istənilən halda əgər tamaşaçılar belə janrından asılı olmayaraq filmlərdə hansısa dialektin, şivənin bol olduğunu dilə gətirirsə, deməli, bu barədə düşünməyə dəyər.

Xatırlayıram, orta məktəb illərində müəllimlərimiz şagirdlərə ədəbi dilə əməl etməyin zəruriliyini vurğulayırdılar. Məktəbimizdə müxtəlif bölgələrdən gəlmiş müəllimlər dərs desələr də, onların nitqində çox nadir hallarda şivə elementləri eşidə bilərdik...

Təbii ki, filmlərdə bütün obrazların üslubu eyni cür ola bilməz; müəllimlə satıcının nitqində fərqlər olmalıdır. Ancaq hansısa filmdə təsvir edilən bir ailədə olan 4-5 nəfərin fərqli şivələrlə danışması artıq problemdir. Bir sıra məşhur filmlərimizdə, o cümlədən "Böyük dayaq", "Ad günü", "Yol əhvalatı", "Bəxt üzüyü", "Bir cənub şəhərində" və s. müəyyən epizodlarda ləhcələrə rast gəlinir. Burada da hansısa bölgənin insanının xarakterini açmaq üçün şivə elementlərindən istifadə edilib. Ancaq bu, həmin filmə xüsusi kolorit qatıb...

### Personaj ədəbi dil normalarına uyğun danışmalıdır

Mövzu ilə bağlı vaxtilə "Azərbaycanfilm" kinostudiyasında ssenari-redaksiya heyətinin üzvü (1969-1974) kimi çalışmış Əməkdar incəsənət xadimi İntiqam Qasımzadənin fikirlərini öyrəndim. Müsahibim deyir ki, filmin səviyyəsi təkcə kinematoqrafik anlamla ölçülmür. Əsas şərt operator, rejissor, rəssam işi olsa da, ədəbiyyatın da rolu var: "Mənim kinostudiyada işlədiyim dövrü Azərbaycan kinosunun intibah dövrü adlandırırlar. O zaman ədəbiyyat da buxovlardan azad olmağa başlamışdı. Kinonun, teatrın əsas qaynağı ədəbiyyat idi. Həm də sözlə işləyən insanların birgə məhsulu ortaya çıxırdı. İndi isə bu sahədə ədəbi materialdan istifadə azalıb. Əgər ədəbi-bədii dil yoxdursa, o zaman bu məsələnin haradan qaynaqlandığını axtarışına çıxmağa ehtiyac qalmır. İstər kinoda, istərsə də teatrda hər personaj öz dilində və təbii ki, ədəbi dil qaydalarına uyğun danışmalıdır. Bunu isə həll edən yazıçıdır. "Dəli Kür" filmini, "Bir cənub şəhərində"ni xatırlayaq. Hərəsinin öz dili var. Məsələn, biz "Bir cənub şəhərində" filmində jurnalist xanımla Cahangirin dialoqlarına və Muradın dostları ilə dialoqlarına nəzər salaq. Obrazları canlı, öz dilində danışdırmaq lazımdır. Bu canlılıq mədəniyyətə, ədəbiyyata istinadla olmalıdır. Ümumiyyətlə isə, müasir kinomuzun və serialların dili böyük təəssüf doğurur. Həmin dövrdə kinoda Anar, Yusif Səmədoğlu, İsmayıl Şıxlı, Elçin kimi yazıçılarımız vardı. Uzun illər kinostudiyada redaksiya heyətinə İsa Hüseynov və Yusif Səmədoğlu rəhbərlik edib. Siz "Qətl günü" filmindəki dialoqlarda Yusif Səmədoğlunun dilinə nəzər salsanız, əlavə şərhə ehtiyac qalmayacaq. Yəni redaktəyə nəzarət edənlərin gücündən, biliyindən asılıdır bu iş. Bu gün isə rejissor və ssenaristlər özləri yazır, özləri də çəkirlər. Ona görə də kinomuzda dil, dialoq problemi yaranıb".

### Problem həm də redaktor işinin olmamağı ilə bağlıdır

Bir müddət "Azərbaycanfilm"də baş redaktor işləmiş yazıçı, ssenarist, Əməkdar incəsənət xadimi **Orxan Fikrətoğlu** deyir ki, kinomuzun dilinin son dövrdə səviyyə baxımdan aşağı düşməsinin əsas səbəbi cəmiyyətdə akademik dilə münasibətin dəyişməsi, kinoda redaktor işinin olmamasıdır: "Vulqar sözlərin mədəni sahələrdə təbliğinə rast gəlirik. Modernist dilin də çərçivəsi olmalıdır. Ədəbi dilimiz mətbuatda, ədəbiyyatda qorunmadığı üçün bu hal artıq kinoya da təsirsiz ötüşməyib. Bir də dil institutlarının özlərinin də bu işdə qəbahəti az deyil. Bu gün qeyri-peşəkar ssenaristlərin kinoya gəlməsi də bu mənzərənin yaranmasına səbəb olub. Vaxtilə görkəmli aktyorlarımız özləri o qədər savadlı və peşəkar idilər ki, ssenaridə, dialoqlardakı jarqon sözləri belə rejissorun, ssenaristin xəbəri olmadan incəliklə cilalayıb təqdim etməyi bacarırdılar".

### "Rejissor və ssenaristlər dilimizdə olan ədəbiyyatı çox oxusunlar"

Şair, dramaturq **İlqar Fəhmi** isə məsələyə bir qədər fərqli yanaşır. Bildirir ki, son dövrdə təkcə Azərbaycanda deyil, bütün dünyada kino dilinin maksimum şəkildə danışıq dilinə yaxınlaşdırılması prosesi gedir. Bu, müəyyən mənada kinonun daha doğma və xalqı qəbul edilməsində müsbət hal kimi qiymətləndirilə bilər: "Amma burada çox incə bir detal var. Kino sadəcə reallığı əks etdirməklə yaradılan sənət əsəri deyil. Kino həm də milyonlarla insanın zövqünü, estetikasını formalaşdıran sənət nümunəsidir. Düşünürəm ki, yaradıcı insanlar mən daha cəsarətli görünüm deyə dil vasitəsilə yarışa çıxmalı deyillər. Kim daha çılpaq dil nümayiş etdirirsə, o daha təbii və yaxşı aktyordur kimi qəbul edilməməlidir. Yəni sənətin heç bir sahəsində, xüsusən də dildə ifrata getmək düzgün deyil. Son dövrlərdə müəyyən platformalarda bəzən açıq-saçıq səhnələri və qeyri-etik ifadələrin çox olduğu filmlər nümayiş etdirilir. Hiss edirsən ki, dialoqlar, cümlə quruluşları ədəbi dilin qaydalarına cavab vermir. Bəzi yeni lentə alınan filmlərimizin tamaşaçılar tərəfindən bəyənilməməyinin bir səbəbi də məhz elə dildəki pozuntular, qeyri-təbiiliklər. Rejissor və ssenaristlər Azərbaycan dilində çoxlu ədəbiyyat oxusalar, filmlərin də dili səlisləşər, zəngin olar".

***

Ümummilli lider Heydər Əliyev mədəniyyət, ədəbiyyat və incəsənətlə bağlı çıxışlarında hər zaman Azərbaycan dilinin saflığının qorunub saxlanılmasına xüsusi diqqət ayırardı. Bu siyasəti davam etdirən Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanılmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu nəzərə çatdıraraq deyib: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir".

Dövlət başçısı tərəfindən 2013-cü il aprelin 9-da imzalanan sərəncamla "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" təsdiq olunub. Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir.

Əgər kino incəsənət sahəsində həm də vacib təbliğat vasitəsi hesab edilirsə, ana dilimizin təbliğində, yayılmasında da onun imkanlarından istifadə etməliyik.

Bəxtiyar Vahabzadənin "Ana dili" şeirində deyildiyi kimi,

*Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,*
*Bu dil bir-birimizlə əhdi-peymanımızdır.*
*Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,*
*Bu dil əcdadımızın bizə miras verdiyi*
*Qiymətli xəzinədir…onu gözlərimiz tək*
*Qoruyub, nəsillərə biz də hədiyyə verək...*

**Lalə Azəri**

## "Gün keçdi" – illər sonra böyük ekranda

Bu il Azərbaycan kinosunun 125, "Azərbaycanfilm" kinostudiyasının 100, Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) isə 60 illiyidir. Bu münasibətlə AKİ klassik Azərbaycan filmlərinin böyük ekranda nümayişinə başlayıb.

Fevralın 14-də ilk olaraq paytaxtdakı "Azərbaycan" kinoteatrında ("CinemaPlus Azerbaijan") "Gün keçdi" filmi nümayiş olunub.

"Gün keçdi" filmi 1971-ci ildə "Azərbaycanfilm" kinostudiyasında istehsal olunub. Yazıçı Anarın ssenarisi (müəllifin 1967-ci ildə dərc olunmuş "Gürcü familiyası" hekayəsi üzrə) əsasında çəkilən filmə rejissor Arif Babayev quruluş verib.



Filmin operatoru Rasim İsmayılov, rəssamı Elbəy Rzaquliyev, bəstəkarı Emin Sabitoğludur. Mahnıların mətni Vaqif Səmədoğluna məxsusdur. Baş rolları Həsən Məmmədov (Oqtay) və Leyla Şıxlinskaya (Əsmər) oynayıblar.

## Xatirə təqvimi 15-17 fevral

### Azərbaycan

**15 fevral 1909** – Əməkdar incəsənət xadimi, aktrisa Xədicə Bahəddin qızı Qazıyeva (1909 – 8.7.1991) Kazan şəhərində doğulub. 1926-cı ildə Azərbaycana gəlib, Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**15 fevral 1914** – Xalq artisti, aktyor Muxtar Həsən oğlu Avşarov (1914 – 6.12.2004) anadan olub. Gəncə Dram, Akademik Milli Dram, Bakı Bələdiyyə teatrlarında çalışıb. "Dəli Kür", "Qaçaq Nəbi", "Kişi sözü" və s. filmlərdə çəkilib.

**15 fevral 1922** – Əməkdar mədəniyyət işçisi Mirəziz Ziyad oğlu Rəfiyev (1922-2007) anadan olub. Yardımlı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru işləyib.

**15 fevral 1923** – Sənətşünaslıq namizədi, professor Xanlar Həmid oğlu Məlikov (1923-1999) anadan olub.

**15 fevral 1924** – Ədəbiyyatşünas, professor Fəridə Şamil qızı Vəzirova (1924-1986) anadan olub.

**15 fevral 1933** – Əməkdar artist Bürcəli Veysəl oğlu Əsgərov (1933 – 1.11.2005) Borçalı bölgəsinin Qasımlı kəndində doğulub. Milli Dram Teatrında çalışıb. Filmlərdə ("Onu bağışlamaq olarmı?", "Qırmızı qar"), televiziya tamaşalarında çəkilib.

**15 fevral 1934** – Əməkdar incəsənət xadimi, bəstəkar Adil Musa oğlu Bəbirov (1934 – 26.9.2021) Bakıda anadan olub. Müxtəlif janrlarda əsərlər, filmlərə, tamaşalara musiqi yazıb, mahnıların müəllifidir. Ömrünün son illərini Kanadada yaşayıb, orada vəfat edib.

**15 fevral 1937** – Azərbaycan Bəstəkarlar İttifaqında növbəti hesabat-seçki toplantısı keçirilib. Üzeyir Hacıbəyli təşkilata sədr seçilib. Böyük bəstəkar ömrünün sonunadək (1948) ittifaqa rəhbərlik edib.

**15 fevral 1973** – Əməkdar artist Tünzalə Məcid qızı Əliyeva (1973 – 22.1.2023) Gəncədə anadan olub. Gəncə, İrəvan teatrlarında çalışıb, filmlərdə, teleseriallarda çəkilib.

**15 fevral 2005** – Xalq artisti, teatr və kino aktrisası Xuraman Abdulla qızı Hacıyeva (7.3.1945 – 2005) vəfat edib. Gənc Tamaşaçılar, Naxçıvan Musiqili Dram teatrlarında işləyib.

**15 fevral 2008** – Prezident İlham Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında" sərəncam imzalayıb.

**16 fevral 1913** (yeni təqvimlə 1 mart) – Xalq yazıçısı, ssenarist və dramaturq Ənvər Qafar oğlu Məmmədxanlı (1913 – 19.12.1990) Göyçayda anadan olub. "Şərqin səhəri", "Od içində", "Şirvan gözəli" pyeslərinin, nəsr əsərlərinin müəllifidir. "Fətəli xan", "Leyli və Məcnun ", "Babək" filmlərinin ssenarisini yazıb.

**16 fevral 1916** – Tanınmış sənətşünas, akademik Əbdülvahab Rəhim oğlu Salamzadə (1916 – 19.8.1983) Şamaxıda doğulub. Azərbaycan memarlıq tarixinə dair tədqiqat əsərlərinin, "Abidələr danışır", "Azərbaycan memarlıq abidələri" və s. kitabların müəllifidir.

**16 fevral 1918** – Qəzəlxan şair, tərcüməçi Qəni Hüseynqulu oğlu Hüseynov (Həkim Qəni; 1918 – 10.6.2008) anadan olub. Məhəmməd Füzulinin qəzəllərinin rus dilinə ilk tərcüməçilərindəndir.

**16 fevral 1925** – Görkəmli memar Zivər bəy Əhmədbəyov (1873-1925) vəfat edib. Təzəpir məscidinin layihə müəllifidir. Cümhuriyyət dövründə Bakının baş memarı olub.

**16 fevral 1945** – Opera müğənnisi, aktyor, rejissor, pedaqoq, Xalq artisti Hüseynqulu Məlik oğlu Sarabski (Rzayev), 20.3.1879 – 1945) vəfat edib.

**16 fevral 2012** – Prezident İlham Əliyev böyük şair və dramaturq Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**17 fevral 1895** – Qəzəlxan şair, Əməkdar incəsənət xadimi Əliağa Vahid (Əliağa Məmmədqulu oğlu İsgəndərov; 1895 – 1.10.1965) Bakının Mazazır kəndində doğulub. Nizami, Xaqani, Füzuli, Nəvai və b. şairlərin qəzəllərini Azərbaycan dilinə tərcümə edib.

**17 fevral 1919** – Ədəbiyyatşünas, mətnşünas, klassik poeziyanın bilicisi Əli Fəhmi (1919 – 13.3.1975) Bakının Sabunçu qəsəbəsində anadan olub.

**17 fevral 1920** – Dilçi-filoloq, professor, Əməkdar elm xadimi Əlövsət Zakir oğlu Abdullayev (1920-1993) anadan olub.

**17 fevral 1926** – Xalq artisti Sofya Həsən qızı Hüseynova (1926 – 30.7.2015) Naxçıvanda doğulub. Naxçıvan teatrının ilk azərbaycanlı aktrisası Xədicə Qazıyevanın qızıdır, uzun illər bu sənət ocağında çalışıb.

**17 fevral 1945** – Əməkdar artist Vəli Allahverdi oğlu Babayev (1945-1989) Naxçıvanda anadan olub. Naxçıvan Musiqili Dram Teatrının baş rejissoru işləyib.

**17 fevral 1958** – Teatr və kino aktyoru Xeyri Osman oğlu Əmirzadə (1893-1958) vəfat edib. Krım türküdür. 1930-cu illərdən Azərbaycanda fəaliyyət göstərib. "Kəndlilər", "Səbuhi", "Bəxtiyar" və s. filmlərdə çəkilib.

**17 fevral 2014** – Prezident İlham Əliyev Xalq artisti, tanınmış dirijor Tofiq Əhmədovun 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**15 fevral 1564** – İtalyan fiziki, astronom, riyaziyyatçı və filosof Qalileo Qaliley (Galileo Galilei; 1564 – 8.1.1642) anadan olub.

**15 fevral 1906** – Tatar şairi, Sovet İttifaqı Qəhrəmanı Musa Cəlil (1906 – 25.8.1944) anadan olub. Böyük Vətən müharibəsində əsir götürülüb, Berlində Moabit həbsxanasında öldürülüb. Əsirlikdə yazdığı "Moabit gündəliyi" şeirlər toplusu ölümündən sonra nəşr olunub.

**15 fevral 1914** – Qazaxıstan milli kinosunun ilk rejissorlarından biri, SSRİ Xalq artisti Şaken Aymanov (1914-1970) anadan olub.

**16 fevral 1845** – Amerika yazıçısı Corc Kennan (George Kennan; 1845-1924) anadan olub.

**16 fevral 1926** – Britaniya kinorejissoru, "Oskar" ("Gecəyarısı kovboy", 1970) mükafatçısı Con Şlezinger (John Richard Schlesinger; 1926-2003) anadan olub.

**17 fevral 1600** – İtalyan filosofu və şairi Cordano Bruno (Giordano Bruno; 1548-1600) inkvizisiyanın (Katolik kilsəsinin məhkəməsi) qərarı ilə edam edilib.

**17 fevral 1906** – Rus-sovet yazıçısı, uşaqlar üçün çoxsaylı əsərlərin, film ssenarilərinin müəllifi Aqniya Lvovna Barto (1906-1981) anadan olub.

**Hazırladı: V.Orxan**

## "Orta əsrlərdə Yaxın Şərqdə gümüş böhranı..."

### Xalça Muzeyində növbəti mühazirə



Azərbaycan Milli Xalça Muzeyində "Orta əsrlərdə Yaxın Şərqdə gümüş böhranı və onun Şirvanşahlar dövlətinin tarixinə və sikkələrinə təsiri" adlı mühazirə keçirilib.

Muzeydən bildirilib ki, mühazirə Azərbaycan Filateliya İttifaqı nəzdində "Filateliya və numizmatika" klubunun üzvü Rüstəm Hüseynov tərəfindən təqdim olunub.

O, Şərq ölkələri tarixində baş vermiş fenomen bir hadisə – "gümüş böhranı" və həmin dövrdə Şirvanşahlar dövlətinin öz sikkələrini zərb etməyə başlaması, tədricən bütün regiona böyük təsir göstərən, qonşu ölkələr üçün örnək olan müxtəlif nominallı sikkələr sisteminin yaradılması barədə təfərrüatlı məlumat verib.

## Türkoloq alimin əsəri 94 il sonra yenidən çapdan çıxıb

XX əsr Azərbaycan dilçiliyi və şərqşünaslığının görkəmli simalarından olan Xalid Səid Xocayev şəxsiyyəti, ədəbi-elmi fəaliyyəti ilə tarixi yaddaşlara həkk olunub. Onun "Yeni əlifba yollarında əski xatirə və duyğularım" adlı əsəri memuar tipli xatirələrdir. Müəllifin 1928-ci ildə qələmə aldığı bu əsər bir il sonra latın əlifbası ilə işıq üzü görmüşdü.

94 il əvvəl nəşr olunan Xalid Səid Xocayevin "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsəri AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi şurasının qərarı və Özbəkistanın Azərbaycandakı Səfirliyinin dəstəyi ilə yenidən işıq üzü görüb.

Yeni nəşrin elmi redaktoru akademik İsa Həbibbəyli, redaktoru, ön söz müəllifi və çapa hazırlayanı filologiya elmləri doktoru Almaz Ülvi Binnətovadır.

Almaz Ülvi giriş sözündə yazır: "Xalid Səid Xocayevin Kanadada yaşayan yeganə 95 yaşlı övladı Bəhicə xanım bu əsərin çapını həsrətlə gözləyirdi. Kitabın nəşr olunması xəbərini axşam eşitdi, sevindi... Çox heyf ki, xəbərini aldığı kitabı əlinə ala bilmədi, zaman fürsət vermədi. Həmin günün səhəri o, artıq bu dünyaya vida etmişdi".

Bəhicə xanımın yeni nəşrə ürək sözləri – minnətdarlıq duyğuları "Xoşbəxtəm ki, Xalid Səid kimi qeyri-adi şəxsiyyətlər unudulmur. O, mənim atamdır" adlı yazısında yer alıb. Məqalədə Xalid Səidin həyat və yaradıcılığı ilə bağlı bir sıra faktlar diqqətə çatdırılır.

"Elm və təhsil" nəşriyyatında çap olunan kitabın mətnini 1929-cu il nəşrindən kompüterdə yenidən işləyən Nüşabə Adıgözəlzadə, rəyçiləri filologiya elmləri doktorları Yaşar Qasımbəyli və Həmidulla Baltobayevdir.

## "Azərbaycanın görkəmli şəxsiyyətləri xatirə medallarında"

Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycanın görkəmli şəxsiyyətləri xatirə medallarında" adlı kataloqu nəşr olunub.

Kataloqun elmi redaktoru muzeyin icraçı direktoru dosent Fərhad Cabbarov, müəllifi Köməkçi tarixi fənn materialları fondunun müdiri dosent Sənubər Qasımovadır.

Xatirə medalları tarixi yaddaşı qoruyan, tarixi hadisələri metal salnamədə əks etdirən qiymətli mənbədir. Tanınmış şairlərin, yazıçıların, alimlərin, siyasətçilərin, bəstəkarların, rəssamların yubileylərinə həsr olunan medallar mütəxəssislər (medalyerlər) tərəfindən yüksək ustalıqla ərsəyə gətirilən incəsənət nümunələridir.

Kataloqda muzeyin Köməkçi tarixi fənn materialları fondunun zəngin kolleksiyasında qorunan xatirə medalları təqdim edilir. Qeyd olunur ki, XX əsrin ikinci yarısında portret janrı medalyer sənətində əsas yer tuturdu. İlk vaxtlarda portretlər üzərində işləyərkən ənənəvi akademik yapma üslubuna üstünlük verilirdi. Tanınmış şəxsiyyətlərin portretlərini yaradan medalyerlər Şərq incəsənətinə xas olan motivlərdən yararlanaraq, personajların mənəvi dünyasını dərindən, bütün incəlikləri ilə verməyi bacarırdılar.

## Elan

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən 2019-cu ildə İskəndərov Kənan Fərman oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

№12 (1981)
15 fevral 2023
www.medeniyyet.az

# Sənətçilərimiz dünya səhnələrində...



## Yusif Eyvazov “Arena di Verona” opera festivalında

Rusiyada yaşayan tanınmış vokalçı soydaşımız, Azərbaycanın Xalq artisti Yusif Eyvazov İtaliyada “Arena di Verona” opera festivalında iştirak edəcək.

Bu barədə məlumatı müğənni sosial şəbəkədəki səhifəsində yazıb: “Əziz dostlar, fəxrlə əfsanəvi “Arena di Verona”nın 100 illik yubiley festivalında iştirak etdiyimi elan edirəm. Çoxlarınız bilirsiniz ki, opera ifaçısı kimi formalaşmağım və ilk addımlarım məhz İtaliyada olub. Ona görə də yubiley festivalında iştirak mənim üçün böyük əhəmiyyət kəsb edir. Bu həm də mənim kiçik yubileyimdir – düz 10 il əvvəl Veronada debüt etmişdim”.

Bildirək ki, iyunun 16-dan avqustun 31-dək keçiriləcək festivalda Yusif Eyvazov italyan bəstəkarı C.Verdinin “Aida” operasının yeni quruluşda tamaşasında və “Riqoletta”nın yeni quruluşunda hersoq Mantuan partiyasını ifa edəcək.





## Şalyapin festivalının azərbaycanlı artistləri

Bu günlərdə isə Azərbaycanın incəsənət ustaları Kazan şəhərində (Tatarıstan Respublikası, Rusiya) keçirilən Şalyapin Beynəlxalq Opera Festivalına qatılıblar.

30 yanvar – 28 fevral tarixlərini əhatə edən festival məşhur rus opera müğənnisi Fyodor Şalyapinin xatirəsinə 1982-ci ildə təsis olunub. Əvvəlcə yerli, 1985-ci ildən Ümumrusiya miqyasında keçirilən festival 1991-ci ildə beynəlxalq status alıb.

Builki festivalın proqramı çərçivəsində fevralın 8-də Azərbaycanın Əməkdar artisti Azər Zadə italyan bəstəkarı C.Puççininin “Madam Batterflyay” operasında Pinkerton partiyasını ifa edib.

Fevralın 11-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyev festivalda C.Verdinin “Nabukko” operasının tamaşasını idarə edib.

27-28 fevralda festivalın qala-konsertində isə Rusiya Böyük Teatrının solistləri, Azərbaycanın Xalq artistləri Elçin Əzizov və Dinara Əliyeva, həmçinin Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Xalq artisti Əli Əsgərov çıxış edəcəklər.

**Lalə Azəri**

# İlləri qazanın yanında keçənlər...

## Milli aşpazlar mükafatı təqdim olunub

Dünyanın ən qədim və ləziz mətbəxlərindən olan Azərbaycan milli mətbəxi zəngin ənənələrə malikdir. Mədəniyyətimizin bir hissəsi olan milli mətbəximizi yüksək səviyyədə təqdim və təmsil etmək isə bu sahənin peşəkarları olan aşpazların üzərinə düşür.

Fevralın 13-də Beynəlxalq Muğam Mərkəzində “İllərin sənətkarı” milli aşpazlar mükafatının təqdimat mərasimi keçirilib. Mükafatı “Azərbaycan Aşpazlar Gildiyası” “Diyar. Az” qastronomiya xəritəsinin layihə rəhbəri, “Dünya Restoran İdmanı Federasiyası”nın vitse-prezidenti Nigar Əmirbəyova ilə birgə təsis edib.

“Milli mətbəxin muğamı” adlı tədbirdə respublikanın təcrübəli şef-aşpazları, tanınmış kulinarlar, mədəniyyət xadimləri, sahibkarlar, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də bu günlər Türkiyədə baş vermiş zəlzələ zamanı dünyasını dəyişənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirin təşkilatçılarından Nigar Əmirbəyova mərasimdə kulinariya sahəsində uzun illər təcrübəsi olan və peşəkarlığı ilə seçilən aşpazların, həmçinin bu sahənin nümayəndələrinin mükafatlandırılacağını bildirib. Məqsəd həm də Azərbaycan milli mətbəxinin usta aşpazlarını bu sahəyə yeni gələn gənclərə tanıtmaqdır.

“Azərbaycan Aşpazlar Gildiyası”nın sədri İlkin Əkbərzadə bildirib ki, tədbirdə uzun illər milli kulinariyamızı, mətbəximizi ölkəmizdə və xaricdə layiqincə təmsil edən, 40-50 il təcrübəsi olan usta sənətkarlar iştirak edirlər. Tədbirə peşə təhsili müəssisələrindən gənc aşpazlar da dəvət olunublar.

Milli Kulinariya Assosiasiyasının rəhbəri Tahir Əmiraslanov, “DAİR Hotellər və Restoranlar” Assosiasiyasının sədri Samir Dübəndi, Türkiyə Dənizli Gənc Aşpazlar Cəmiyyətinin nümayəndəsi Süleyman Kursak təşkilatçılara minnətdarlıqlarını bildirib, milli mətbəximizin beynəlxalq festivallarda təmsil və təbliğ olunmasında qocaman aşpazların fəaliyyətini yüksək qiymətləndiriblər.




Mərasimdə Azərbaycan aşpazları haqqında Bakı Media Mərkəzi tərəfindən hazırlanan film göstərilib. Dünyanın tanınmış aşpazları azərbaycanlı həmkarlarına videotəbriklərini çatdırıblar.

Sonra “İllərin sənətkarı” milli mükafatı təqdim edilib. Təltif edilənlər onların fəaliyyətini qiymətləndirdiklərinə görə təşkilatçılara təşəkkürlərini bildiriblər.

Qonaqlar Azərbaycan milli mətbəxinin incisi sayılan “Şah plov”un, milli mətbəximizin digər təamlarının, şirniyyatların dadına baxıblar.

Xanəndələrin ifasında səslənən “Qarabağ şikəstəsi”, İncəsənət ustalarının təqdim etdikləri “Arşın mal alan” operettasından səhnəcik tədbirə rəng qatıb.




## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 160 il əvvəl...

**17 fevral 1863-cü ildə** Cenevrədə Beynəlxalq Qırmızı Xaç Komitəsi təsis edilib. Hazırda dünyanın bütün “qaynar” nöqtələrində humanitar fəaliyyət göstərən təşkilatın təşəbbüskarı və ilk rəhbəri isveçrəli iş adamı, ictimai xadim Anri Dünan (Jean Henri Dunant) olub.

### 107 il əvvəl...



**16 fevral 1916-cı ildə** I Dünya müharibəsi gedişində Qafqaz cəbhəsində hücumu davam etdirən Rusiya qoşunları Türkiyənin Ərzurum bölgəsini işğal ediblər. Rusiya bunadək Türkiyənin 1877-1878-ci illər müharibəsində itirdiyi Qars və Ərdəhan bölgələrinə də nəzarət edirdi. Ərzurumun işğalı ilə bölgədəki erməni qüvvələrinin türk əhalisinə qarşı hücumları da genişlənib. Türkiyə 1918-ci ildə hər üç bölgəni Rusiyadan geri ala bildi.

### 90 il əvvəl...

**16 fevral 1933-cü ildə** Almaniyanın gələcək təcavüzü qarşısında bir araya gələn Çexoslovakiya, Rumıniya və Yuqoslaviya “Kiçik Antanta” adlı ittifaq yaradıblar. Lakin bu ittifaq onları 1939-cu ildə faşist Almaniyasının işğalından xilas edə bilmədi.

### 44 il əvvəl...

**17 fevral 1979-cu ildə** Çin qoşunları Vyetnam ərazisinə daxil olaraq ölkənin bir hissəsini işğal edib. Beynəlxalq ictimaiyyətin kəskin etirazını doğuran işğal martın 5-dək davam etdi.

### 34 il əvvəl...

**15 fevral 1989-cu ildə** Əfqanıstandakı 50 min nəfərlik SSRİ hərbi kontingentinin çıxarılması başa çatıb. Sovet qoşunları Əfqanıstana bu ölkənin kommunist təmayüllü rəhbərliyinin “müraciət”i ilə 1979-cu ildə yeridilmişdi. Bu müddətdə “beynəlmiləl borcunu yerinə yetirən” 15 mindən çox hərbi qulluqçu həlak olmuş, 53 min nəfər yaralanmışdı. 1988-ci ilin 14 aprelində imzalanan



“Əfqanıstan Demokratik Respublikasında vəziyyətin siyasi nizamlanmasına dair” Cenevrə razılaşmalarına uyğun olaraq, həmin ilin 15 mayında sovet qoşunlarının ölkədən çıxarılması başlanmışdı.

### 31 il əvvəl...

**16 fevral 1992-ci ildə** Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO – Economic Cooperation Organization) üzv olub. Təşkilatın Tehranda keçirilən toplantısında keçmiş SSRİ-nin daha beş müsəlman respublikası – Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Tacikistan da üzvlüyə qəbul edilib. ECO 1985-ci ildə Türkiyə, İran və Pakistan tərəfindən təsis edilib. Hazırda Əfqanıstan da daxil olmaqla 10 ölkəni birləşdirir.

**17 fevral 1992-ci ildə** erməni silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocavənd (Martuni) rayonunda azərbaycanlıların yaşadığı Qaradağlı kəndini işğal ediblər. Bunadək kənd dəfələrlə ermənilərin hücumlarına məruz qalmışdı. İşğal zamanı kənddə olan 118 nəfər əsir götürülmüş, onların 68 nəfəri daha sonra öldürülmüşdü.

**Hazırladı: V.Orxan**

# Türkiyədəki zəlzələ ən dağıdıcı yeraltı təkanların qara onluğunda

Türkiyədə fevralın 6-da baş verən 7,7 və 7,6 bal gücündə zəlzələlər indiyədək episentri quruda olan ən dağıdıcı yeraltı təkanların qara onluğuna daxildir. Bu barədə Kanadanın Viktoriya Universitetinin professoru, seysmoloq Edvin Nikssen deyib. Onun sözlərinə görə, indiyədək dünyada bundan da güclü bir çox zəlzələlər baş verib, amma onların əksəriyyətinin episentri dəniz və ya okeanlarda olduğu üçün, quruya çatan dağıdıcılıq gücü qismən səngiyib. Türkiyədə meydana gələn zəlzələnin belə böyük tələfatla nəticələnməsinin bir səbəbi də onun əhalinin sıx yaşadığı regionu əhatə etməsidir.



Kanadalı professor qeyd edib ki, Türkiyədə zəlzələnin insanlar üçün ən əlverişsiz şəraitdə - gecəyarısı və qış fəslində baş verməsi tələfat sayını xüsusilə artıran səbəbdir.

Xatırladaq ki, Türkiyənin Kahramanmaraş vilayətində episentri Pazarcık rayonu (7,7 bal; yerli vaxtla saat 4:17) və Elbistan rayonu (7,6 bal; yerli vaxtla saat 13:24) olan zəlzələlər ümumilikdə 10 vilayətdə dağıntı və tələfat törədib. Bu vilayətlərdə ümumilikdə 10 milyondan çox əhali yaşayır.

Fəlakətin doqquzuncu gününə, fevralın 14-nə olan məlumata görə, zəlzələnin vurduğu on vilayətdə ümumilikdə dağıntılar altından çıxarılan ölü sayı 32 minə çatıb.

Zəlzələ Türkiyə ilə qonşu Suriyada da böyük dağıntı və tələfata səbəb olub. Dünya Səhiyyə Təşkilatının (DST) Şərqi Aralıq dənizi regionunun fövqəladə hallar üzrə direktoru Rik Brennanın bildirdiyinə görə, Suriyada zəlzələ qurbanlarının sayı 8500-dən çoxdur. Onların yarıdan çoxu Suriya hökumətinin faktiki nəzarətində olmayan (o cümlədən kürd üsyançı qrupların əlindəki) ərazilərdə ölüb. Qeyd edək ki, Suriya rəsmiləri yalnız de-fakto dövlətin nəzarət etdiyi bölgələr üzrə tələfat sayını açıqlayır və bu rəqəm 4 mini keçib.

Bu arada DST mütəxəssisləri hər iki ölkə üzrə ümumi vəziyyəti gözdən keçirərək 6 fevral zəlzələsinin Türkiyədə və Suriyada toplam ölü sayının 50 mini aşacağını bildirirlər. Xatırladaq ki, Türkiyədə indiyədək baş vermiş və təxmini statistikası bəlli olan ən böyük fəlakət 1939-cu ilin 27 dekabrında baş verən Ərzincan zəlzələsi sayılır. O zaman 40 minə yaxın insan həlak olmuşdu.

**V.Kamal**

# BTA və Nazarbayev Universiteti arasında memorandum imzalanıb

Mənzil-qərargahı Astana şəhərində yerləşən Beynəlxalq Türk Akademiyası (BTA) ilə Nazarbayev Universiteti türkologiya və avrasiyaşünaslıq sahələrində əməkdaşlıq edəcək.



Bu məsələ BTA-nın prezidenti akademik Şahin Mustafayevin Nazarbayev Universitetinin rektoru Şigeo Katsu ilə görüşündə müzakirə olunub.

Görüş zamanı Ş.Mustafayev və Ş.Katsu BTA və Nazarbayev Universiteti arasında türkologiya və avrasiyaşünaslıq sahələrində əməkdaşlığa dair anlaşma memorandumu imzalayıblar.

Sənəd Nazarbayev Universitetində türkologiya üzrə magistr və doktorantura proqramlarının açılmasını dəstəkləmək məqsədi daşıyır.

Qeyd edək ki, 2022-ci ildən Beynəlxalq Türk Akademiyasına Azərbaycandan Şahin Mustafayev rəhbərlik edir. Bundan öncə (2014-cü ildən) Qazaxıstandan Darhan Kıdırali akademiyanın prezidenti idi.

# ABŞ-da pandemiya ilə əlaqədar fövqəladə vəziyyət ləğv ediləcək

Amerika Birləşmiş Ştatlarında koronavirus pandemiyası ilə əlaqədar tətbiq olunan fövqəladə vəziyyət rejimi ləğv ediləcəyi gözlənilir.

Bunu ABŞ Prezidenti Cozef Bayden deyib. O qeyd edib ki, ölkədə koronavirusla bağlı ölüm halları təxminən 90 faiz azalıb: “Biz milyonlarla insanın həyatını xilas etdik və ölkəni yenidən açdıq”.

Bayden bildirib ki, səhiyyə sahəsində fövqəladə vəziyyətin ləğvinə tərəfdar olduğunu bildirib.

Ağ evdən verilən məlumata görə, administrasiya COVID-19 pandemiyası ilə əlaqədar fövqəladə vəziyyətin mayın 11-dən dayandırılmasının tərəfdarıdır.

Xatırladaq ki, Dünya Səhiyyə Təşkilatı koronavirusla bağlı pandemiya rejimini rəsmən 2020-ci ilin 11 martında elan edib. Hələlik təşkilat rəsmiləri bu rejimin yaxın aylarda aradan qaldırılacağı barədə açıqlama verməyiblər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5048. **Sifariş:** 456
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641